

"SƏS" qəzeti mənim üçün ən aziz qəzetdir

## Yeddi ərazimiz geri qaytarılır




7

# Güclü iqtisadi inkişafla müəyyən edilmiş hədəflərə doğru!




2


SƏS

№ 185 (6868)

11 oktyabr 2023-cü il.
Qiymәti 60 qәpik


**İLHAM ƏLİYEV: "Son 20 ildə Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə yoxdur"**

# Karvan bizi Qarabağa, Şərqi Zəngəzura aparır



9

**Levan Mamaladze: "Prezident İlham Əliyev bütün imkanlardan səmərəli istifadə edərək çox böyük uğurlar qazandı"**



3

## 50 il sonra "Qiyamət günü"



4

## Beynəlxalq Qızlar Günü: üz qızardan həqiqətlər



15

## Metroda növbə...



14

## Azərbaycanda donuz taununun yayılma riski var?



16

# Güclü iqtisadi inkişafla müəyyən edilmiş hədəflərə doğru!

*İLHAM ƏLİYEV: "Son 20 ildə Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə yoxdur"*




***Son illərin göstəricilərindən də məlum olduğu kimi, dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan, dünyada nüfuzu durmadan artan Azərbaycan regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilmişdir. Prezident İlham Əliyevin liderliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmiz bu gün müəyyən edilmiş hədəflərə doğru inamla irəliləyir. Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan xalqına müraciətində bildirmişdir: "İqtisadi inkişafa gəldikdə, son 20 ildə dünya miqyasında Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə yoxdur. İqtisadiyyatımız 3 dəfədən çox artmışdır".***

Məhz bu uğurlu göstəricilər Prezident İlham Əliyev cənablarının "Güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah" konsepsiyası ilə Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir. Bunun nəticəsində, biz uğurla inkişaf edirik. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə çıxışlarında vurğulayıb ki, əldə edilmiş uğurların dünyada bərabəri yoxdur, bu danılmaz aksiomadır. Məhz ölkəmizin iqtisadiyyatın inkişaf tempinə görə regionda lider dövlətə çevrilməsi də təsadüfi deyil. Azərbaycan hökumətinin yürütdüyü müstəqil siyasət həmişə birmənalı olub: "Güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah. Bax, bu prinsiplərin vəhdəti bu gün Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir. Bunun nəticəsində, biz uğurla inkişaf edirik".

Çünki...

## "BİZİM MƏQSƏDİMİZ İQTİSADİ CƏHƏTDƏN GÜCLÜ, SİYASİ CƏHƏTDƏN MÜSTƏQİL DÖVLƏT QURMAQDIR"

"Əsl siyasət konkret, real iş görməkdir" - deyən Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində hazırda, ilk növbədə, Azərbaycanın qüdrətli dövlətə çevrilməsi yolunda son dərəcə mühüm addımlar atılmaqdadır. "Bizim məqsədimiz iqtisadi cəhətdən güclü, siyasi cəhətdən müstəqil dövlət qurmaqdır" - ölkə başçısının bu sözləri aparılan siyasətin ana xəttidir. Çünki iqtisadi müstəqillik siyasi müstəqillik üçün əsasdır.

Təkcə cari ilin ötən dövrünün reallıqlarına diqqət yetirsək, möhkəm təməlin uğurların davamlılığında rolunu aydın şəkildə görərik. Belə ki, iyulun 11-də möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə dövlətimizin başçısı vurğulayıb ki, ölkəmiz uğurla inkişaf edir, bütün istiqamətlər üzrə qarşıya qoyulan vəzifələr icra edilir. Dövlətimizin başçısı onu da qeyd edib ki, iqtisadi və maliyyə imkanlarımızın genişliyi hər bir sahədə davamlı uğurlara nail olmaq üçün zəruri tədbirlərin görülməsinə stimul verir. Maliyyə sektorundakı nizam-intizamın möhkəmləndirilməsi, vergi və gömrük orqanlarında islahatların davam etdirilməsi, şəffaflığın təmin edilməsi və digər amillər ilin ortasında büdcəyə yenidən baxmağa və dürüstləşmə aparmağa imkan verdi. Dövlətimizin başçısı hazırda büdcəmizin 36 milyard manatdan çox olduğunu xüsusi vurğulayaraq əlavə etdi ki, bu, həm ölkə qarşısında duran əsas investisiya layihələrini icra etməyə, həm azad edilmiş torpaqlarda geniş quruculuq işlərini aparmağa və həm də hərbi gücümüzü artırmağa imkanlar yaradır.

Hazırkı dövrün əsas hədəfi olan hərbi gücümüzün artırılmasına gəldikdə, Azərbaycan İkinci Qarabağ münaqişəsində 30 ilin işğalına son qoyub ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etməklə nəyə qadir olduğunu dünyaya nümayiş etdirdi. "Müzəffər Ali Baş Komandan İlham Əliyev postmünaqişə dövrünün hədəflərini açıqlayarkən hərbi qüdrətimizin artırılmasını xüsusi qeyd etdi. Bu gün Azərbaycan Silahlı Qüvvələri daha böyük hərbi potensiala malikdir. Ordumuz həm döyüş qabiliyyəti, həm də silah və texnika ilə təchizat baxımından daha da güclü olacaq. Dövlətimizin başçısı bir daha bildirdi ki, iki istiqamət üzrə - hərbi potensiala və azad edilmiş torpaqların bərpasına nə qədər vəsait lazımdırsa, o qədər də ayrılacaq. Bu siyasət ölkəmizin qüdrətini artırır. Çünki bu gün dünyada güc amili ön plandadır. Son iki il yarımın reallıqları bir daha təsdiqlədi ki, heç kim Azərbaycanın iradəsinə təsir edə bilməz. Azərbaycanla hədə-qorxu, ultimatum dili ilə heç kim danışa bilməz və bundan sonra belə cəhdlər də olmayacaq.

"Həyata keçirilən islahatlar, vətəndaşlarımızın sosial-iqtisadi vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində atılan addımlar, qeyri-neft sektorunun inkişafı üzrə görülən işlər öz müsbət nəticələrini verməkdədir",- deyən Prezident İlham Əliyev bildirib ki, ölkəmiz ötən altı ayda nəzərdə tutulmuş hədəflərə nail olunub. Belə ki, əvvəlki dövrlərdə olduğu kimi, ölkəmizdə yenə də dayanıqlı inkişaf təmin edilib, qeyri-neft sektoru böyüyüb, Qarabağ və Şərqi Zəngəzurda misli görünməmiş bərpa-quruculuq işləri geniş vüsət alıb, iqtisadi və sosial sahələrdə ardıcıl və sistemli islahatlar həyata keçirilib və uğurlar da ortadadır. Çünki düzgün iqtisadi siyasət ölkəni ancaq tərəqqiyə doğru aparır. Bu real faktordur ki, ölkə iqtisadi cəhətdən müstəqil olanda, siyasi müstəqilliyə də qovuşmuş olur. Çünki iqtisadi asılılığı olan ölkələr heç vaxt müstəqil siyasət yürüdə bilməzlər. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan iqtisadi və siyasi müstəqillik qazanmış azsaylı ölkələrdəndir. İlin altı ayının sosial iqtisadi göstəricilərinin ildən-ilə artaraq tərəqqiyə doğru aparır.

## BİZ QARABAĞI, ZƏNGƏZURU YENİDƏN QURURUQ, YENİDƏN QURMALIYIQ

Göründüyü kimi, cari ilin altı ayında əsas istiqamətlər ölkəmizin dayanıqlı inkişafının təmin edilməsi, qeyri-neft sektorunun inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası, iqtisadi və sosial sahələrdə islahatların davam etdirilməsidir. Dövlətimizin başçısı Qarabağ və Şərqi Zəngəzurun bərpası ilə bağlı görülən işlərə xüsusi diqqət yetirərək bildirib ki, artıq bu il Talış kəndinə və Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıtması təmin edilib. İlin sonuna qədər Laçın şəhərinin Zabux və Sus kəndlərinə də keçmiş məcburi köçkünlər qayıdacaqlar. Qayıdış proqramı ardıcıllıqla aparılır və beləliklə, ilin sonuna qədər artıq burada bərpa olunan beş yaşayış məntəqəsində vətəndaşlar öz dədə-baba torpaqlarında tam məskunlaşacaqlar.

Bütövlükdə, Böyük Qayıdış Proqramının birinci mərhələsində 100 yaşayış məntəqəsinin yenidən qurulması nəzərdə tutulur. İşğaldan azad edilən ərazilərdəki şəhər və qəsəbələrin Baş planları hazırlanaraq təsdiqlənib, hazırda bir çox yerlərdə fəal inşaat işləri aparılır. Bütövlükdə, nəzərdə tutulmuş investisiya proqramı əsasında bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzura təqribən 12 milyard manata qədər vəsaitin xərclənməsi təmin ediləcəkdir. xususi olaraq qeyd edilməlidir ki, görülən bütün işlər Azərbaycan hesabına həyata keçirilir. İki məktəb istisna olmaqla, qalan bütün infrastruktur, inşaat işləri Azərbaycanın büdcəsi hesabına və Azərbaycanın dövlət şirkətləri tərəfindən həyata keçirilir. Eyni zamanda, Heydər Əliyev Fondu ondan çox məscidi yenidən inşa edir, yaxud da ki, onları əsaslı şəkildə bərpa edir.

Dövlətimizin başçısı onu da söyləyib ki, heç bir yerdən heç kim bizə bir manat yardım etməyib, hamısını özümüz edirik: "Biz Qarabağı, Zəngəzuru yenidən qururuq, yenidən qurmalıyıq. Buna nə qədər vəsait lazımdır. Hamısını öz hesabımıza edirik, 1 il 8 ay ərzində hələ bir dənə də kömək görməmişik. Heç bir yerdən heç kim bizə bir manat yardım etməyib, hamısını özümüz edirik. Şəhərləri qururuq, kəndləri qururuq, binalar tikirik və hələ nə qədər edəcəyik".

Göründüyü kimi, bütün bunlar Azərbaycanın böyük iqtisadi imkanlara malik olduğunu təsdiqləyir. Çünki iqtisadi müstəqillik siyasi müstəqillik üçün əsasdır. Dövlət başçısı İlham Əliyevin bir daha Azərbaycanın ədalətə və beynəlxalq hüquqa söykənən mövqeyi dəstəkləndi. Bir daha sübut olundu ki, ümumilikdə Azərbaycan üzv olmadığı planforma-lardan heç vaxt kənarda qalmır. Və qloballaşma şəraitində sürətlə dəyişən dünyanın bütün predmetləri nəzərə alınmaqla, əminliklə deyə bilərik ki, Azərbaycan bu gün inamla inkişaf edən ölkələr sırasındadır. Və qloballaşma şəraitində sürətlə dəyişən dünyanın bütün predmetləri nəzərə alınmaqla, əminliklə deyə bilərik ki, Azərbaycan bu gün inamla inkişaf edən ölkələr sırasında olmaqla, müstəqil, güclü iqtisadiyyata və maliyyə resurslarına malik, özünü təmin edən və mövqeyini müdafiə etməyi bacaran ölkədir. Bütün bunlar Azərbaycanın müstəqil siyasətinin nəticəsi, hər bir sahədə zəngin təcrübəyə malik olmasının təsdiqidir.

## İQTİSADİ MÜSTƏQİLLİK SİYASİ MÜSTƏQİLLİYİN TƏMƏL DAŞIDIR

"Əlbəttə ki, bütün bu işlərin görülməsi üçün iqtisadiyyat əsasdır". Azərbaycan Prezidenti İlham Əliyev onu da vurğulayıb ki, iqtisadi müstəqillik əldə edilmişdir və biz məhz buna görə siyasi müstəqillik əldə etmişik, beynəlxalq müstəvidə müstəqillik əldə etmişik: "Heç kim bizim iradəmizə təsir edə bilməz, heç kim bizə heç nəyi diktə edə bilməz, heç kimdən asılı deyilik və əminəm ki, heç vaxt heç kimdən asılı olmayacağıq. Asılı olsaydıq, Qarabağ bu günə qədər işğal altında idi. Ona görə iqtisadi müstəqillik əsas amillərdən biridir və burada da böyük nailiyyətlər var". "Biz büdcəni təkcə neftin qiymətinin artırılması nəticəsində böyütməmişik. Yəni, dürüstləşmə, eyni zamanda, aparılan islahatlar nəticəsində mümkün olmuşdur", - deyən dövlət başçısı onu da vurğulayıb ki, dünyada neftin qiyməti qalxıb, amma eyni zamanda, dünyanın kapital bazarları çöküb, bunu da hər kəs bilməlidir: "Bəzən kimsə fikirləşir ki, neftin qiyməti artıb, Azərbaycan daha çox zənginləşib. Bəli, neftin qiyməti artıb, amma bizim ehtiyatlarımız əsasən istiqrazlardadır, səhmlərdədir. Açsınlar baxsınlar, dünyanın kapital bazarları necə çöküb. Əlbəttə, bu, müvəqqətidir. Bütün suveren fondlar bu vəziyyətlə üzləşiblər. Mən indi başqa suveren fondların itkilərini demək istəmirəm, amma burada 10 milyardlarla itkilərdən söhbət gedir - böyük suveren fondların, bu kapital bazarının çökməsi nəticəsində. Bu, bizə də mənfi təsir göstərir. Ancaq biz öz işimizlə, islahatlarla elə işləyirik ki, heç kim bunu hiss etmir".

Beləliklə, göstərilən rəqəmlər bir daha Azərbaycanın güclü iqtisadiyyata malik olduğunu təsdiqləyir, ölkədə iqtisadiyyatın şaxələndirilməsi siyasətinin uğurla həyata keçirilməsindən, həmçinin neft-qaz sektorundan asılılığın azaldılmasından xəbər verir. Çünki iqtisadi müstəqillik siyasi müstəqillik üçün əsasdır. Dövlət başçısı İlham Əliyevin çıxışlarında vurğuladığı kimi, bu da bizim uğurla həyata keçirdiyimiz müstəqil xarici siyasət kursunu aparmaq imkanının mühüm amilidir və bu gün Azərbaycanın ədalətə və beynəlxalq hüquqa söykənən mövqedədir.

Bax, budur müasir Azərbaycan həqiqətləri. Əlbəttə ki, bu gün Azərbaycanın qazandığı uğurları şərtləndirən əsas amil Prezident İlham Əliyevin düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrasıdır. Və yuxarıda deyilənlərdən hasil olan nəticə ondan ibarətdir ki, iqtisadi müstəqilliyin təmin edilməsi Azərbaycanın tarixi nailiyyətidir. Bu gün heç bir xarici dövlət, heç bir beynəlxalq təşkilat ölkəmizlə diktat dili ilə danışmır və danışa da bilməz. Məhz, son illər ərzində görülən işlər, açılan istehsal müəssisələri bir daha onu göstərir ki, Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatını düzgün əsaslar üzərində qurmaqla dayanıqlı inkişafı təmin edir, ən əsası dünyaya yeni iqtisadi modeli nümayiş etdirir.

Bir sözlə, baş verən bu reallıqlar birmənalı şəkildə onu deməyə əsas veriri ki, son 20 ildə yürütdüyü siyasətlə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Azərbaycan Prezdnti İlham Əliyev ölkəmizi daha möhtəşəm qələbələrə, zəfərlərə doğru aparır. Azərbaycanın artan maliyyə imkanları, iqtisadiyyatda baş verən keyfiyyət dəyişiklikləri özünü göstərir. Eyni zamanda gələn ilin dövlət büdcəsinin göstəriciləri təsdiq edir ki, büdcə gələn ildə də Azərbaycanın öz milli, iqtisadi və sosial hədəflərinə çatması üçün etibarlı maliyyə təminatı yaradacaq.

**RƏFİQƏ KAMALQIZI**

# “İkitərəfli münasibətlərimiz müttəfiqlik xarakteri daşıyır”

## Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevi qəbul edib. Dövlətimizin başçısı ölkələrimiz arasında münasibətlərin gündəliyindəki məsələlərin çox geniş olduğunu bildirdi. Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin imzalanmasından keçən dövr ərzində ikitərəfli münasibətlərimizin həqiqətən müttəfiqlik xarakteri daşıdığını nümayiş etdirdiyini dedi və bunun bütün sahələrdə özünü göstərdiyini vurğuladı.***



Azərbaycan Prezidenti regional təhlükəsizlik, iqtisadi əlaqələr, nəqliyyat və digər sahələrlə bağlı əməkdaşlığımızın bundan sonra da möhkəmlənəcəyinə əminliyini bildirdi.

Nikolay Patruşev, ilk növbədə, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Vladimir Putinə çatdırmağı xahiş etdi. Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı Ümummilli Liderin əziz xatirəsini ehtiramla yad etdi.

Dövlətimizin başçısı Ulu Öndərin anadan olmasının 100 illiyi münasibətilə Ümummilli Liderin xatirəsinə ehtiram əlaməti olaraq Rusiyada dövlət səviyyəsində tədbirlərin keçirilməsinə görə minnətdarlığını bildirdi.

Qonaq Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin imzalanmasından sonra əlaqələrimizin daha da genişləndiyini məmnunluqla vurğuladı. Görüşdə qlobal və regional məsələlər, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı, regional əməkdaşlıq məsələləri müzakirə olundu.

Dövlətimizin başçısı regional məsələlərin 3+3 formatında region ölkələrinin iştirakı ilə həll edilməsinin vacibliyini vurğuladı, bu formatda müvafiq səviyyələrdə görüşlərin keçirilməsini qeyd etdi. Söhbət zamanı Şimal-Cənub Nəqliyyat Dəhlizinin inkişaf etdirilməsi istiqamətində Azərbaycan-Rusiya-İran arasındakı əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.

# Rumıniya Senatının sədri: ”Azərbaycanın enerji təhlükəsizliyi sahəsində beynəlxalq ictimaiyyətə dəstəyi göz qabağındadır”



Milli Məclisin sədri Sahibə Qafarova oktyabrın 10-da Rumıniya parlamenti Senatının sədri Nikolae Çuka ilə görüşüb. Görüşdə ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərə dair müzakirələr aparılıb. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Nikolae Çuka bu səfərin iki ölkə, o cümlədən parlamentlərimiz arasında münasibətlərin inkişafına töhfə verəcəyinə inamını ifadə edib. O, Azərbaycan ilə Rumıniya arasında dərin dostluq əlaqələrinin olduğunu qeyd edib, ölkələrimizin bir çox sahələrdə əməkdaşlığını diqqətə çatdırıb.

Nikolae Çuka dövlətlərimiz arasında olan yüksəksəviyyəli münasibətlərin qanunverici orqanlar arasında da əməkdaşlığın daha da inkişafı üçün yaxşı imkanlar yaratdığını, parlamentarilərin, dostluq qruplarının təmaslarının önəmini vurğulayıb. Nikolae Çuka Azərbaycanla Rumıniya arasında bir çox sahələrdə, o cümlədən, enerji, nəqliyyat, səhiyyə, təhsil sahələrində əməkdaşlığın daha da inkişafı üçün böyük potensial olduğunu bildirib. O deyib ki, Azərbaycanın enerji təhlükəsizliyi sahəsində beynəlxalq ictimaiyyəti nə qədər dəstəklədiyi göz qabağındadır.

Sahibə Qafarova öz növbəsində bu səfərin ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsinə və genişlənməsinə töhfə verəcəyinə inamını ifadə edib.

Görüşdə Azərbaycan ilə Rumıniya arasında dostluq münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi, ikitərəfli münasibətlərin inkişafında yüksək səviyyəli səfərlərin və görüşlərin əhəmiyyəti qeyd olunub.

İki ölkənin qanunverici orqanları arasında da əməkdaşlıqdan danışan Milli Məclisin sədri deyib ki, Azərbaycan ilə Rumıniyanın ikitərəfli və çoxtərəfli münasibətlərinə mühüm və müsbət təsir göstərən amillərdən biri də parlamentlərin qarşılıqlı fəaliyyətidir. Qarşılıqlı səfərlər bu əməkdaşlığın inkişafına təkan verir. Milli Məclisin sədri Vətən müharibəsindən sonra regionda yeni yaranmış vəziyyət, Azərbaycanın antiterror tədbirləri nəticəsində bir gün ərzində ərazi bütövlüyünü bərpa etməsi barədə məlumat verib.

O, Azərbaycanın Vətən müharibəsində qazandığı Qələbədən ötən üç il ərzində Ermənistan tərəfindən törədilən siyasi və hərbi təxribatlar, ərazilərimizin minalanması, mina partlayışları nəticəsində çoxsaylı hərbçi və mülki şəxslərin həlak olması, Azərbaycan ərazisində separatizmin dəstəklənməsi və digər faktları diqqətə çatdırıb. S.Qafarova, həmçinin Azərbaycanın 8 kəndinin hələ də Ermənistanın işğalı altında olduğunu xatırladıb. Görüşdə Qarabağın erməniəsilli sakinlərinin reinteqrasiyası istiqamətində həyata keçirilən tədbirlər barədə də danışılıb.

Nikolae Çuka ölkəsinin Azərbaycanın hər zaman ərazi bütövlüyünü tanıdığını, sülh planını dəstəklədiyini bir daha bəyan edib, ərazilərin minalanmasının dəhşətli nəticələrə gətirib çıxardığını deyib, danışıqlar nəticəsində tezliklə sülh sazişinin imzalanacağına ümidvar olduğunu bildirib.

# ”Bizim sülhməramlılara aid prinsipial məsələlər Bakı ilə müzakirə olunur”



Rusiya sülhməramlı kontingentinin Qarabağda yerləşməsi şərtlərində ciddi dəyişikliklər edilib. Bu barədə Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib. O deyib: ”Rusiya sülhməramlı kontingentinin regionda yerləşməsi şərtlərində ciddi dəyişikliklər edilib, sülhməramlıların fəaliyyəti yeni şəraitə uyğunlaşdırılacaq”.

M.Zaxarova xatırladıb ki, hazırda Rusiya sülhməramlılarının bir neçə stasionar və müvəqqəti müşahidə postları bağlanılıb. O əlavə edib: ”Bizim sülhməramlılara aid prinsipial məsələlər Bakı ilə müzakirə olunur. Rusiya, Azərbaycan və Ermənistan arasında danışıqların yeni raundunun keçirilməsi imkanları və tarixi barədə mütləq məlumat verəcəyik”.

# Levan Mamaladze: ”Prezident İlham Əliyev bütün imkanlardan səmərəli istifadə edərək çox böyük uğurlar qazandı”

Əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev və Gürcüstanın sabiq Prezidenti Eduard Şevardnadze tərəfindən qoyulmuş dostluq və qardaşlıq münasibətləri bu gün uğurla inkişaf edir. Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana son səfəri zamanı səsləndirdiyi fikirlər də bunu bir daha sübut edir.



Bu sözləri AZƏRTAC-a müsahibəsində Gürcüstanın Strateji Planlaşdırma Mərkəzinin rəhbəri Levan Mamaladze söyləyib.

Onun sözlərinə görə, bu gün regionda reallaşdırılan irimiqyaslı enerji və nəqliyyat layihələri bizim dostluğumuzu daha da möhkəmləndirir. Azərbaycan stabil ölkədir və zəngin karbohidrogen ehtiyatlarına malikdir. Prezident İlham Əliyev bütün imkanlardan səmərəli istifadə edərək çox böyük uğurlar qazandı. Onun rəhbərliyi altında Azərbaycan Ordusu torpaqları işğaldan azad etdi. Bu, təkcə Azərbaycan üçün faydalı olmadı. Azərbaycan bununla regionda sülhün və əmin-amanlığın əsasını qoydu. Azərbaycanın bu Qələbəsi digər münaqişələrin həlli üçün də yol açır: ”Prezident İlham Əliyev həm də dünyaya nümayiş etdirdi ki, münaqişələri çox qısa zamanda həll etmək olar və hətta düşmənin özü ilə də birbaşa danışıqlar aparmaq olar. Bu, bütün dünya üçün bir nümunədir”.

L.Mamaladze deyib ki, bu gün Azərbaycan-Gürcüstan münasibətləri dünyada nümunədir. Bizim liderlərimiz tərəfindən ortaya qoyulmuş möhkəm siyasi iradə nəticəsində iqtisadi və digər sahələrdə əlaqələrimiz uğurla inkişaf edir. İqtisadi əlaqələrimizdən danışırkən neft və qaz, nəqliyyat layihələrini nəzərdə tutmaq olmaz. Biz bu gün daha böyük, qlobal layihələr üzərində işləyirik. Bu Şərqlə Qərbi birləşdirəcək Orta Dəhliz layihəsidir. Bu layihənin daha da böyük uğur gətirməsi üçün Anakliya limanı tikilir. Prezident İlham Əliyevin və Baş nazir İrakli Qaribaşvilinin bu məsələdə yekdil fikirdə olması, onu deməyə əsas verir ki, layihə həqiqətən də böyük gəlirlər gətirəcək və bizim xalqlarımızın rifah halı daha da yaxşılaşacaq.

”Düşünürəm ki, xalqlarımız da dövlət və hökumət başçılarımızın ətrafında sıx birləşməli və münasibətlərimizi daha yüksək səviyyəyə qaldırmalıyıq. Bütün dünyaya sübut etməliyik ki, Azərbaycan ilə Gürcüstan regionun əsas aparıcı ölkələri olmaqla yanaşı, hamı üçün nümunə olan dost, qardaş ölkələrdir”,- deyə Mamaladze vurğulayıb.

# 50 il sonra “Qiyamət günü”

## Yaxın Şərqi və İsraili dəyişdirən hadisə

İsrail və Fələstin arasında 2023-cü il oktyabrın 7-də başlayan yeni genişmiqyaslı müharibə, HƏMAS yaraqlılarının qurudan, dənizdən və havadan İsrail torpaqlarını işğal etməsi yəhudi dövlətinin ərazisinə kütləvi raket hücumu ilə başladı. Tarix, görünür, təsadüfən seçilməyib. Bu, açıq-aydın 50 il əvvəlki hadisələrə aiddir.

6 oktyabr 1973-cü il şənbə günü günorta saat 2-də Misir Prezidenti Ənvər Sədatın əmri ilə Misir qoşunları İsrailin mövqelərinə kütləvi artilleriya bombardmanı və hava hücumundan sonra Süveyş kanalını keçərək ölkənin içərilərinə doğru hərəkət etməyə başladılar. Sadat qürurla yazırdı: ”İsrailin mövqelərinə ilk hücumda 222 səsdən sürətli təyyarə iştirak etdi... Misir Hərbi Hava Qüvvələri 1956 və 1967-ci illər müharibələrində itirdiklərinin hamısını belə aldı”.

Misir qoşunları Sinay yarımadasında Baş Qərargah rəisinin təşəbbüsü ilə yaradılmış və ”Bar-Lev xətti” kimi tanınan güclü istehkamlar sistemindən yan keçdilər. Beləliklə, İsrailin ərəb ölkələri ilə apardığı müharibələrin dördüncüsü olan ”Axirət günü” müharibəsi başladı.



## Dördüncü Müharibə

Müharibə İsrail üçün çətin sınaq idi. Hərbi əməliyyatların başlanması üçün oktyabrın 6-nın seçilməsi təsadüfi deyildi. Həmin gecə Süveyş kanalında suyun ən aşağı səviyyəsi qeydə alınıb. Qəfil hücum üçün əlverişli amil İsraildə əsas dini bayram olan Yom Kipura - ”Qiyamət Günü”nün - Tövbə və Bağışlanma Gününün qeyd edilməsi idi. Həmin gün ölkənin həyatı dayanır, ölkə əhalisinin çoxu sinaqoqlarda dua edirdilər.

Oktyabrın 6-da Misirin hücumu ilə eyni vaxtda suriyalılar da Colan təpələrində tanklarla güclü hücum həyata keçirdilər. Onların motorlu və zirehli diviziyaları ən azı 45 min əs-



gər və 1200-ə yaxın tankdan ibarət idi. Suriya Hərbi Hava Qüvvələrində Sovet istehsalı olan 300-dən çox təyyarə var idi. Onların yolunda 4500 əsgər və zabitdən ibarət ÇAXAL - İsrail Müdafiə Qüvvələri və 180-ə yaxın tank dayanmışdı. İsraillilərin 160 ”Skyhawk” hücum təyyarəsi və 100 ”Phantom” qırıcısı var idi. Cəmi 500 təyyarə. Ancaq İsrail Hərbi Hava Qüvvələri iki cəbhədə döyüşmək zərurəti ilə üzləşdi.

Suriyanın Colan təpələrindəki hücumu ən böyük təhlükə idi. Sinayın uzunluğu israillilərə hücumu dəf etmək üçün vaxt verdi. Ancaq şimalda belə bir strateji dərinlik yox idi. Döyüşlərin başlamasından təxminən bir gün sonra Suriya qoşunlarının qabaqcıl bölmələri İordan çayına və Tiberias gölünə (Kinneret) çatdılar. Hayfadan bir neçə saat uzaqda, ən mühüm strateji mövqedə - Colandakı Hermon dağında İsrail qarnizonu Suriya desant qüvvələri tərəfindən gözlənilmədən ələ keçirildi.

Qeyd edək ki, 1967-ci il müharibəsindən sonra SSRİ Misir və Suriyanın hərbi potensialını bərpa etmək üçün çox iş-



lər gördü. Lakin 1970-ci ilin sentyabrında Misir prezidenti Camal Əbdülnasirin vəfatından az sonra bu ölkənin yeni rəhbərliyinin Sovet İttifaqına münasibəti dəyişməyə başladı. Sovet liderlərinin ərəb xalqlarına dəstək haqqında bəyanatlarına baxmayaraq, silah tədarükü yavaşladı. Moskvaya səfərləri zamanı Misirin yeni prezidenti Ənvər Sadat əmin oldu ki, Moskva Leonid Brejnev və Riçard Nikson arasında görüş ərəfəsində onun tələblərini yerinə yetirmək üçün detensiyadan imtina etmək istəmir. SSRİ Yaxın Şərq münaqişəsinin siyasi yolla həllinə çalışırdı. Buna baxmayaraq, Moskvanın mövqeyini birmənalı hesab etmək olmazdı. Sovet İttifaqının Misirdəki səfiri ərəb ölkələrinin güc tətbiq etməsinin ”İsrailin ələ keçirilən ərazilərlə bağlı mövqeyinə” qanuni cavab kimi qiymətləndirildiyini yazıb. Eyni zamanda, sovet rəhbərliyi ərəb paytaxtlarında təbliğ edilən İsrailin məhv edilməsi planlarının qəti əleyhinə idi. Kreml, yəqin ki, ”müharibə yoxdur, sülh yoxdur” vəziyyəti kimi xarakterizə edilə bilən Yaxın Şərqdəki vəziyyətdən məmnun idi.

7 iyul 1972-ci ildə Ənvər Sadat Misirdəki Sovet səfiri ilə görüşdə heç bir izahat vermədən 15 min sovet hərbi məsləhətçisinin iyulun 17-dək Misiri tərk etməli olduğunu bildirdi. O, sovet ordusunun bilavasitə istifadə etdiyi silahların ölkədən çıxarılmasını tələb etdi. Demarşın səbəbləri arasında Sadatın Misir silahlı qüvvələrinin döyüş potensialına şübhə ilə yanaşan sovet təlimatçılarının onu İsraillə hərbi əməliyyatlardan saxlamasını istəməməsi də var idi. Digər səbəblər arasında amerikalıların Misir prezidentinə yeritdiyi ideyanın həyata keçirilməsi ümidi də var idi - yalnız onlar Yaxın Şərq nizamlanması prosesini irəli apara və İsraillə təsir edə biləcəklər. Amma Birləşmiş Ştatlar bunu pulsuz etməyəcək, qiymət bir azalma və sonra Sovetlərin Yaxın Şərqdə, ilk növbədə Misirdə mövcudluğunun tamamilə aradan qaldırılmasıdır. Əgər belə bir şey olmasa, İsrail Misir üçün məqbul sülh şərtlərinə razı olmayacaq.

Sovet rəhbərliyi strateji əhəmiyyətli regionda hərbi mövqelərin zəifləməsini və faktiki olaraq ləğv edilməsini ağrılı qəbul etdi. Eyni zamanda, rahatlıq hissi yarandı: SSRİ-nin son dərəcə təhlükəli münaqişəyə birbaşa cəlb olunması təhlükəsi azalmışdı. Bu arada, İsraillə müharibənin uğurunun riski də Sədatın daxili siyasi mövqelərini gücləndirmək istəyi ilə bağlıdır. Sədat verdiyi vədlərin əksinə olaraq Moskva ilə məsləhətləşmədən ”Yom Kippur” - ”Axirət günü” müharibəsinə başladı. Ancaq Moskvada onlar suriyalılardan başlanğıc tarixini bilirdilər. Brejnev müharibəyə başlamaq qərarına mənfi reaksiya verdi, lakin ərəb müttəfiqlərini fikrindən daşındırmaq üçün heç nə etmədi.

Moskva Misir və Suriyanın həlledici hərbi uğur qazana biləcəyinə inanmırdı. Bununla belə, İsrailin hələ də zərər görəcəyi güman edilirdi ki, bu da onu Yaxın Şərq münaqişəsinin siyasi həlli ilə bağlı sərt mövqeyindən əl çəkməyə məcbur edəcəkdi. Sovet yəhudilərinin kütləvi surətdə repatriasiyasına icazə verilməsi tələbləri ilə çıxış edən və beynəlxalq ictimaiyyəti bu məsələyə cəlb edən İsrail hakimiyyətinin hərəkətləri sovet liderlərini xüsusilə qıcıqlandırdı. Sovetlərin Misirdəki səfiri Vladimir Vinoqradov xatırlayırdı: ”Sadat gözləmirdi ki, Misir qoşunları Süveyş kanalını planlaşdırıldığı kimi üç günə yox, üç saata keçə biləcəklər... Hər şey daha sadə və daha uğurlu, daha az itki ilə nəticələndi. Ordu Sovet İttifaqının köməyi ilə hazırlanmışdı. Silah sarıdan vəziyyət əla idi”.

İsrailin hərbi əməliyyatların başlama vaxtı barədə kifayət qədər məlumatı var idi. Oktyabrın 5-də MOSAD-ın direktoru Zvi Zamir Misirdəki agentindən gözlənilən hücumla bağlı məlumat alıb. Mərkəzi Kəşfiyyat İdarəsi Suriyanın İsrailə hücum planını əməliyyat başlamazdan iki gün əvvəl alıb. Mü-



haribənin başlaması ilə bağlı xəbərdarlıqlar İordaniya kralı Hüseyndən də gəlib. Buna baxmayaraq, müharibə israilliləri təəccübləndirdi. Hərbi komandanlıq və kəşfiyyatda Misir qoşunlarının Süveyş kanalı boyunca cəmləşməsi və Colan təpələrinə tank və artilleriya aparan Suriyanın hərəkətləri barədə demək olar ki, bütün məlumatlar var idi, lakin bunu sırf müdafiə tədbirləri hesab edirdi. Hava üstünlüyü olmadan hücum hərəkətlərinin mümkün olmadığına əmin idi. İsraillilər hərbi əməliyyatların məqsədlərinə dair öz anlayışlarından irəli gəlirdilər. İsrail üçün müharibəyə getmək həmişə qələbə uğrunda döyüş demək olub. Döyüş tapşırıqlarını uğurla yerinə yetirmək üçün lazımi potensiala malik ərəblərin olmadığı bir şəraitdə hərbi əməliyyatlar barədə düşünməyə belə dəyməz, onlar İsrailə inanırdılar. Misirli zabitlərin Məkkəyə Həcc ziyarətinə hazırlaşdıqlarına dair İsrail kəşfiyyatına da yanlış məlumat verilib. Yalnız oktyabrın 5-də İsraildə bəzi qərarlar qəbul edildi.

Ardı Səh. 5

# 50 il sonra “Qiyamət günü”

Əvvəli Səh. 4

Məsələn, pilotlar və tank ekipajları ”Axirət günü” üçün məzuniyyət almadılar. İsrail kəşfiyyatının məlumatına görə, misirlilər və suriyalılar tərəfindən döyüşlərin başlaması saat 18:00-a planlaşdırılmışdı. Bu dörd saatlıq kəşfiyyat fasiləsi İsrailin taleyində az qala ölümcül rol oynadı.

Müdafiə Nazirliyində səhər saat 5-də keçirilən iclasda Baş Qərargah rəisi David Elazar Hərbi Hava Qüvvələrinin ümumi səfərbərliyi və qabaqlayıcı zərbəni müdafiə etdi. Lakin müdafiə naziri Moşe Dayan bunun əleyhinə idi. Baş nazir Qoldanın ”dar kabineti”nin iclasında Meir Elazar yenidən önləyici tədbirin böyük fayda verəcəyini qeyd etdi. ”Bu, çoxlu insanların həyatını xilas edəcək... Bu, ciddi müharibə olacaq... Bu gün saat 12-də Suriya hərbi hava qüvvələrini tamamilə məhv edə biləcəyik. Bundan sonra bütün raketləri məhv etmək üçün bizə daha 30 saat lazım olacaq. Əgər onlar saat 17:00-da hücuma keçməyi planlaşdırırlarsa, hava qüvvələri o vaxta qədər Suriya ordusuna qarşı əməliyyat aparmaqda sərbəst olacaq”.

Elazarın təklif etdiyi tam səfərbərlik Dayanın etirazları ilə qarşılandı: ”Saat 17:00-a qədər bütün hava qüvvələrini və 2 bölməni səfərbər etsək, bu kifayət edər. Axşama qədər vəziyyət pisləşərsə, səfərbərliyi davam etdirəcəyik. Müharibənin başladığını demək lazımdır... Bu gün əsas hava qüvvələrini səfərbər etməkdir...”. Meir tam səfərbərliyə ehtiyac olduğunu bildirərək Elazarla razılaşdı. 100 min ehtiyatda olan əsgər orduya çağırıldı. Lakin onların təyinat yerlərinə çatana qədər heç olmasa bir gün lazım idi. İsrail açıq şəkildə səfərbərlikdə gecikdi. Tətilin nəticələrinin ölkə rəhbərliyinin təsəvvür etdiyindən qat-qat ağır olduğu ortaya çıxdı.

### ”İsrailin taleyi həll olunur...”

Colan təpələrində yerləşən ehtiyat tank diviziyasının komandiri, general-leytenant Rafael Eytan ”Əsgərin nağılı” adlı avtobioqrafik kitabında belə xatırlayırdı: ”Süveyş kanalında hansı döyüşlərin getdiyini eşitdik. İndi, müharibənin ölçüləri



ortaya çıxanda... hiss daha da güclənirdi: bu müharibədə İsrailin taleyi, onun varlığı həll olunur”.

Suriyanın Colanda hücumu başlandı. İsrail tanklarından ibarət bir batalyon inanılmaz səylər nəticəsində suriyalıların üstün qüvvələrinin qarşısını ala bildi. Oktyabrın 7-də səhər saatlarında İsrail qüvvələri hələ də bir-biri ilə koordinasiya olmadan döyüşürdü. Tankların əksəriyyəti məhv edildi, lakin bəziləri hücumdan sağ çıxdı və düşmənə xeyli ziyan vurdu. Bununla belə, Suriya tanklarının irəliləməsi dayandırılmadı. Gecə döyüşü zamanı səkkiz İsrail tankı bütöv bir alayın hücumunu dayandırdı. Eytan qeyd edirdi: ”Bu uğur heyrətamizdir, xüsusən də ona görə ki, bizdə hələ gecəgörmə və istiqamətləndirmə cihazları yox idi... 1973-cü ildə Colani diviziyasının paraşütçüləri, əsgərləri və digər döyüşçülər İsrailin taleyini həll etdilər”.

İsrail getdikcə cəbhəyə daha çox birliklər cəlb etməyə başladı. Amma güc getdikcə azalırdı, sursat tükənirdi. Eytan yazırdı: ”Dəhşətli hissdir... insanlar yorğundurlar ... artıq dördüncü gündür ki, bir dəqiqə belə yata bilməyən hərbçilər dözümlərini itirirdilər ... və yalvarırdılar ki, getməliyik. Çıxış yolu yoxdur. Geri çəkilək, bir az geri çəkilək...”. Deyirəm ki, daha beş dəqiqə, daha 10 dəqiqə dözəcəyik... Suriyalılar qırılacaq”. Həmin kritik anda, əlaqə üzərindən Eytan birdən silah yoldaşının səsini eşitdi: ”Hara gedək? Harada döyüşməli? 20 tank suriyalıların arxasına keçib. Onlar Suriya tanklarını dəqiq zərbələrlə sıradan çıxarırlar. Beləliklə, suriyalıların 24 saatdan çox fasiləsiz davam edən ən dəhşətli hücumu rüsvayçılıqla başa çatdı. Şimal dairəsinin qərargahından Baş Qərargah rəisinə göndərilən teleqramda deyilir: ”Colan təpələri bizim əlimizdədir”. Bu hesabatın arxasında İsrail Müdafiə Qüvvələrinin əsgərlərinin şücaəti və qəhrəmanlığı gizlənirdi.

Suriyanın itkiləri böyük idi. Təxminən 800 tank minalanmış ərazilərdə tank əleyhinə top atəşi və hava zərbələri nəticəsində məhv edilib. Vəziyyət İsrailin xeyrinə dəyişdi. Müharibə başlayandan dörd gün sonra Sovet İttifaqı silah köçürmə əməliyyatına başladı. Qərb mənbələrinə görə, neqliyyat təyyarələri Misir və Suriyaya silah və hərbi texnika çatdırmaqla 900-dən çox uçuş həyata keçirib. Əhəmiyyətli dərəcədə daha çox yük dəniz yolu ilə göndərilib. Sovet Hərbi Dəniz Qüvvələrinin gəmiləri Aralıq dənizinin şərq hissəsində yerləşdirildi. Oktyabrın sonuna qədər onun gücü, Qərbin hesablamalarına görə, 34 gəmi və 23 sualtı qayıq da daxil olmaqla 96 döyüş bölməsinə çatdı.

Qərb analitikləri sovet eskadrilyasının Aralıq dənizində mövcudluğunun artmasının, onların münaqişə bölgəsinə göndərilməsi təqdirdə qoşunları dəstəkləmək üçün istifadə oluna biləcəyinə sübut kimi şərh edirdilər. Sovet hərbi qulluqçuları tankları boşaltma limanlarından cəbhəyə aparır, Suriyanın hava hücumundan müdafiə sisteminin radarlarını və idarəetmə panellərini idarə edir, tankları və digər hərbi texnikanı təmir edirdilər. Müharibənin beşinci günündə, oktyabrın 10-da İsrail qoşunları suriyalıları 1967-ci il atəşkəs xəttindən kənara çıxara bildi və Suriyaya qarşı əks-hücumu həyata keçirə bildi.

Meir xatırladır ki, bu arada, İsrail silah üçün ümidsiz idi. Əvvəlcə Pentaqon silah göndərməkdən çəkinirdi. İsrail başqa ölkələrdən təyyarə almağa çalışırdı. İsrail rəhbərliyinin ABŞ-a göndərdiyi mesajlarda nüvə silahından istifadənin mümkünlüyünə işarə var idi. Ən azı amerikalıların sətirlər arasında oxuduqları budur. Meir dəfələrlə İsrailin ABŞ-dakı səfiri Simça Dinitzlə əlaqə saxlayıb, gizli şəkildə Vaşinqtona gəlməyə və prezident Niksonla görüşməyə hazır olduğunu bildirib. Müharibənin doqquzuncu günü, oktyabrın 14-də hava körpüsü quraşdırıldı. Raketlər, tanklar, mərmilər, dərmanlar, ”Skyhawk” və ”Phantom” təyyarələri davamlı axınla gəlməyə başladı. Hava körpüsünün yaradılması israillilərin erkən qələbəyə inamını gücləndirdi. Ölənlərin ilk siyahısı açıqlandı. Oktyabrın 6-dan 13-dək olan döyüşlərdə həlak olan israillilərin sayı 656 nəfər idi.

”Biz - yenə biz...”

Oktyabrın 8-də Sinaydakı İsrail tankları əks-hücuma keçməyə çalışdı və böyük itki verdi. Bu hücumda iki tabor itirən israillilər misirlilərin mövqelərinə tərəf irəliləməyi dayandırdılar. Baş Qərargah rəisi Elazar Baş nazir Meirə zəng vuraraq bunları dedi: ”Qolda, hər şey yaxşı olacaq. Biz yenə bizik, onlar yenə onlardır”. Oktyabrın 15-dən 16-na keçən gecə general Ariel Şaronun komandanlığı altında diviziyanın hava-de-




sant və tank bölmələrindən ibarət dəstə Süveyş kanalını keçərək qərb sahilində əməliyyata başladı. Misirin üçüncü ordusu mühasirəyə alındı. İsraillilər əsir düşən əsgər və zabitlərlə məşğul olmalı idilər.

BMT Təhlükəsizlik Şurasında vəziyyətin müzakirəsi onun daimi üzvlərinin qan tökülməsinin dayandırılmasının mümkünlüyü ilə bağlı mövqelərində ciddi fərqləri göstərdi. ABŞ atəşkəs və 6 oktyabr xətlərinə qayıtmağa çağırdı. Lakin hücumu inkişaf etdirən Misir və Suriya üçün bu, qəbuledilməz idi. SSRİ İsrail qoşunlarının tamamilə 1967-ci il sərhədlərinə çıxarılmasını təklif etdi. Tezliklə SSRİ-nin mövqeyi dəyişdi, bu da İsrailin Colandakı əks-hücumları ilə izah edildi. Suriyadan qorxan Moskva da mövcud xətlərdə atəşkəs lehinə danışdı. Brejnev dövlət katibi Henri Kissincerlə apardığı danışıqlar nəticəsində Birləşmiş Ştatların BMT-də 12 saatlıq atəşkəslə bağlı Sovet layihəsini dəstəkləməyə razılaşmağa nail oldu. Oktyabrın 22-də bu layihə BMT Təhlükəsizlik Şurasının qətnaməsi ilə dəstəkləndi.

Lakin İsrail irəliləməyə davam etdi, silahlı qüvvələri Süveyş şəhərinə çatdı. Ərəb müttəfiqlərinin tam məğlubiyyətinin real təhlükəsi ilə əlaqədar olaraq Brejnev Niksona teleqram göndərdi və SSRİ və ABŞ-ın silahlı kontingentlərini müharibə edən tərəflər arasında bufer kimi istifadə edərək Yaxın Şərqə köçürməyi təklif etdi. Brejnev vurğulayırdı: ”Əgər siz bizimlə bu istiqamətdə birgə hərəkət etməyi qeyri-mümkün hesab etsəniz, o zaman tələb olunan tədbirlərin birtərəfli qaydada tətbiqi məsələsinə baxmağımız zərurəti ilə üzləşəcəyik. Biz İsrailin özbaşınalığına yol verə bilmərik”.

Sovet rəhbərliyi İsrailə ”Misir və Suriyaya qarşı təcavüzkar hərəkətləri”nin ”ən ağır nəticələri” barədə xəbərdarlıq etdi. Moskvanın bəyanatı iki hava-desant diviziyasının hazır vəziyyətə gətirilməsi və Aralıq dənizi Hərbi Dəniz Qüvvələrinin bir neçə döyüş gəmisinin şərqə göndərilməsi ilə gücləndirildi. Həmin gün, oktyabrın 24-də ABŞ silahlı qüvvələrini Avropa da daxil olmaqla bir çox bazalarda yüksək döyüş hazırlığı vəziyyətinə gətirildi. Oktyabrın 25-də İsrail hökuməti Misirə hərbi hücumunu dayandırdı.

### Bir dövrün sonu

İctimaiyyət təcili olaraq müharibənin ilkin dövrünün uğursuzluqlarına görə məsuliyyət daşıyanların tapılmasını tələb edirdi. 1973-cü il noyabrın 21-də hökumət Dövlət Komissiyasını yaratdı və İsrail Ali Məhkəməsinin sədri doktor Şimon Aqranat onun sədri təyin edildi. Komissiyanın tapşırıqları arasında: müharibə ərəfəsində baş vermiş hadisələrin tədqiqi, o cümlədən düşmənin niyyətləri və onun əsasında hərbi və mülki strukturlar tərəfindən qəbul edilən qərarlar, habelə ölkə silahlı qüvvələrinin hazırlıq dərəcəsi ilə bağlı məlumatların təhlili prosesi var idi. Komissiya əsas məsuliyyəti Baş Qərargah rəisi, general-leytenant David Elazar, Hərbi Kəşfiyyatın rəisi, general-mayor Eliahu Zeir, onun müavinləri və Cənub Cəbhəsinin komandanı general-mayor Şmuel Qonenin üzərinə qoydu. Komissiyanın səlahiyyətlərinə hökumətin fəaliyyəti ilə bağlı məsələyə baxılması daxil deyildi. Aqranat Komissiyasının dərc olunmuş nəticələri kəşfiyyatın hava üstünlüyü olmadan Misir və Suriyanın müharibəyə gedə bilməyəcəyi fikrinə əsaslanan hərbi-siyasi planlaşdırmaya zidd olduğunu göstərirdi. Nəticədə kəşfiyyat hərbi əməliyyatların mümkünlüyünün ”son dərəcə aşağı” olduğu barədə yanlış nəticəyə gəldiyini müəyyən etdi.

Müharibədən qısa müddət sonra İsraildə, xüsusən də səfərbər edilmiş əsgər və zabitlər arasında etiraz hərəkatlarının müxtəlif formaları meydana çıxdı, sülh çağırışları gücləndi və müxalifət partiyalarının təsiri artdı və bu, son nəticədə Qolda Meir hökumətinin istefasına səbəb oldu. Oktyabrın 25-də ”Axirət günü” müharibəsi başa çatdı. İsrail ağır itki verdi. 2552 nəfər həlak oldu, 8500-dən çox insan yaralandı. 800 tank və 115 təyyarəsini itirdi. İsraillilər Dəməşqdən 20 km, Qahirəyə isə 69 km məsafədə olsalar da, o müharibəni qalib hesab etməyə heç bir əsas yox idi. Misir və Suriya silahlı qüvvələri 20 mindən çox itki verdi, ən azı 2200 tank və 514 təyyarəsi məhv edildi.

Misirlilərin ictimai şüurunda ”Oktyabr döyüşü” aşkar məğlubiyyətə baxmayaraq, bu günə qədər hələ də qələbə kimi qə-



bul edilir. Qahirədə oktyabrın 6-da paradlar keçirilir və möhtəşəm tamaşalar nümayiş etdirilir.

1977-ci il noyabrın 19-da Misirin prezidenti Ənvər Sadat Qüdsə tarixi səfər etdi. Və 26 mart 1979-cu ildə Misirlə İsrail arasında sülh müqaviləsi bağlandı. Bu, əsl qələbə idi. Müharibə Yaxın Şərqi və İsraili dəyişdi. İsrail üçün bu, bütöv bir dövrün sonu demək idi. Dövlətin qurucusu David Ben-Qurionun 1973-cü il dekabrın 1-də vəfat etməsi də simvolik xarakter daşıyırdı.

***V.VƏLİYEV***

***P.S. Məqalədə xarici mənbələrə istinadlar var.***

# Qloballaşma dövründə mənəvi dəyərlər kimə və nəyə lazımdır?

"Azərbaycan öz milli-mənəvi kökləri üzərində inkişaf etməlidir, nə qədər ki, bizim hökumət iqtidardadır, bu, belə olacaq"- İlham Əliyev

***Son dövrlərdə cəmiyyətimizdə bəzi qüvvələr tərəfindən milli-mənəvi dəyərlərə qarşı hücumlar artıb. Bu hücumları təşkil edənlər əxlaqi kriteriyalara, mənəvi dəyərlərə qarşı təbliğat aparır, öz əxlaqını, vicdanını, namusunu- ailə dəyərlərini qoruyan insanları geridəqalmış kimi qələmə verməyə çalışırlar. Bəzi xarici mərkəzlər tərəfindən həyata keçirilən bu təbliğata qarşı dövlət və cəmiyyət birgə mübarizə aparmalıdır.***




### Milli-mənəvi dəyərlər elmi-texniki inkişafa mane olurmu?

Avropa dəyərləri adı altında bəzi beynəlxalq və yerli mərkəzlər tərəfindən bizə sürətlə və ardıcıl sırınan dəyərlərin mənəvi tərəfləri faciədir. Bu mənəvi deqradasiyanın Qərb cəmiyyətlərini hansı sosial-mənəvi faciələrə gətirib çıxardığı haqda çoxsaylı faktlar və elə Qərb tədqiqatçılarının bu mövzuda ciddi əsərləri var.

Qloballaşma prosesində birtərəfli inteqrasiya ciddi problemlərə yol aça bilər. Bəzi dairələr bəzi Qərb ölkələrinin iqtisadi və texniki inkişafını əsas götürüb bizim də onların mənəvi dəyərlərini qəbul etməyimizə çağırır və deyirlər ki, görürsünüzmü, Qərb ölkələri mənəvi dəyərləri kənara atıblar deyə necə inkişaf ediblər.

Lakin onlara Yaponiyanı nümunə göstərəndə boğazları quruyur. İndi necə izah etsinlər ki, mühafizakar yaponların timsalında bir xalq öz dəyərlərini, mədəniyyətini, dinini, ənənələrini, əxlaqını qoruyaraq da dünyanın ən inkişaf etmiş xalqına çevrilə bilir. Daha bir belə nümunə kimi Çini göstərmək olar. Tərslikdən də, Çin və Yaponiya Qərbdə yox, Şərqdə yerləşirlər. Deməli, elmi-texnoloji, sosial-iqtisadi inkişaf üşün heç də yad dəyərləri qəbul etmək vacib deyil, öz dəyərlərin üzərində də inkişaf edə bilərsən.

### İnsan hüquqları, yoxsa anarxik əxlaqi deqradasiya?

İkinci arqument insan hüquqları adı altında cəmiyyətimizə sırınan dəyərlərdir. Məsələn, qadın hüquqları, uşaq hüquqları, cinsi azlıqların hüquqları adı altında. Bizim cəmiyyətdə qadınlar, uşaqlar, xəstələr kimsə tərəfindən əzilirmi? Psixi xəstələr tərəfindən edilən tək-tük kriminal hərəkətləri nəzərə almasaq, xeyr!

Kişilərin həmişə qadınlara diqqətlə, qayğıyla, fədakarlıqla yanaşdığını görmüşük. Azərbaycan qadını həm evinin, ailəsinin xanımı olub, həm də cəmiyyətə faydalı ictimai fəaliyyət göstərib.

Bizdə uşaqlar döyülüb öldürülürmü? Xeyr! Sadəcə valideyn bəzən tərbiyəsi pozulmasın deyə uşağına qulaqburması verir. Əks halda, həmin uşağın axırı cinayətkara və ya narkomana çevrilər. Uşağını qorumaq, onun tərbiyəsinin pozulduğunu gördükdə cəzalandırmaq valideynin borcu və haqqıdır. Bəlkə yeniyetmə qızcığaz gecə saat 3-də pritondan atasına zəng eləyib desin ki mənim bəzi vacib işlərim var, özüm kefim istəyəndə evə gələcəm? Xeyr, bağışlayacaqsınız, bunlar hüquq deyil, anarxiyadır, mənəvi deqradasiyanın kulminasiyasıdır. Məgər dövlət cinayət törədən vətəndaşı cəzalandırmırmı? Məgər bəzi qayda və qanunlar, tələblər havayı yerəmi qoyulub?

İndi isə keçək yad dəyərlərin təbliğatçılarının ən yaralı yerlərindən birinə- cinsi azlıqların hüquqları məsələsinə. Bizim cəmiyyətdə cinsi azlıq nümayəndəsi şallaqlanırmı, ya da ictimai yerlərdən qovulurmu? Xeyr! Onlara vəziyyətdən asılı olaraq fiziki ya da psixoloji cəhətdən xəstə adam kimi baxırlar. Onlar digər vətəndaşların istifadə etdiyi bütün sosial və sair hüquqlardan yararlanırlar. Onlar əmlak, sosial təminat, əmək hüququ məsələlərində ayrı-seçkiliyə məruz qalırlarmı? Xeyr.

### Dəyərlər niyə dəyişməlidir və ya necə dəyişməlidir?





Mənə şəxsən aydın deyil, inkişaf etmək üçün mənəvi dəyərləri yad mədəniyyətlərdənmi qəbul etməliyik, özümüzünkü yaramırmı? Yaramırsa, niyə misal üçün, Sovet dövründə həm mənəvi-əxlaqi dəyərlərimizi qoruyurduq, həm də ictimai, sosial, mədəni, elmi, texnoloji inkişaf gedirdi? Elə indi də, milli-mənəvi dəyərlərimiz elmi-texniki inkişafımıza heç bir problem yaratmır.

Deməli, inkişaf üçün milli-mənəvi dəyərləri itirməyə, onu yad dəyərlərlə əvəzləməyə ehtiyac yoxdur. Hər mədəniyyətin özünün psixoloji-ruhi-mənəvi dəyərlər sistemi var. Elmi-texnoloji, sosial-iqtisadi inkişafın bura heç bir dəxli yoxdur. Dəyərlər dəyişib, dəyişir, dəyişəcək. Amma bu dəyişmə mütləq mənfi istiqamətdəmi olmalıdır? Müsbətə doğru dəyişmək olmazmı? Olar! Yaxşı, bəs onda nə deyib bizim ailə institumuzu dağıtmaq, cəmiyyət əxlaqını dəyişmək istəyirlər? Çətin sualdır.

### Əxlaqsızlığın təbliğinə görə sərt cəzalanma olmalıdır

Ümumiyyətlə, ölkədə qadın alverinin, narkotikanın, digər zərərli və təhlükəli halların təbliği qadağandırsa, onda əxlaqsızlığın təbliği də qanunla qadağan olunmalıdır. Mediada və sosial şəbəkələrdə milli-mənəvi dəyərlərə təcavüzə qarşı daha ciddi tədbir görülməlidir. Çünki, bu, bir milli təhlükəsizliik məsələsidir. Necəmi?

Heç kəsə sirr deyil ki, ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin (CİA) rəhbəri Allen Dallesin SSRİ-yə qarşı məşhur "Məhvetmə" planına bənzər doktrinaların hazırda hələ tam mənəvi deqradasiyaya uğramamış cəmiyyətlərə tətbiq edilməsinə çalışılır.

Dallesin planından mövzumuza birbaşa aidiyyatı olan bəzi detallara nəzər salaq. "...Biz bütün gücümüzü insanların axmaqlaşdırılması və səfeh yerinə qoyulmasına yönəldəcəyik!

İnsan beynində xaos yaradaraq, onların dəyərlərini saxtalarıyla dəyişəcəyik və onları bu saxta dəyərlərə inanmağa məcbur edəcəyik. Necəmi? Biz orada öz həmfikirlərimizi, müttəfiqlərimizi tapacağıq.

Məsələn, incəsənət və ədəbiyyatdan tədricən onun sosial mahiyyətini çıxaracağıq... Ədəbiyyat, teatr, kino ən alçaq insani hissləri təsvir və mədh edəcək. Biz insanların şüuruna seks, zorakılıq, sadizm, satqınlıq kultunu, bir sözlə hər cür əxlaqsızlığı yeridən və yayan adamları dəstəkləyəcəyik

Çox az adam nə baş verdiyini başa düşəcək. Lakin biz onları köməksiz vəziyyətə salacaq, gülüş obyektinə çevirəcəyik, onları şərləməyin və cəmiyyətin tör-töküntüsü adlandırmağın yolunu tapacağıq. Xalq əxlaqının əsaslarını təhrif edərək məhv edəcəyik.

Biz bu yolla nəsli nəslin ardınca sarsıdacağıq. İnsanların üzərində uşaq, yeniyetmə yaşlarından işləyəcəyik, əsas stavkanı isə həmişə gənclərə edəcəyik- onları mənəviyyatca korlayacaq, onlardan həyasız, heyvərə və kosmopolitlər düzəldəcəyik. Biz bunu bax belə edəcəyik!".

### Mənəvi deqradasiya milli təhlükəsizlik üçün təhdiddir

Əlbəttə, heç bir mənəvi dəyərə malik olmayan cəmiyyəti kənardan dağıtmaq, onu özünə tabe etmək, istismar etmək asandır. Axı yalnız möhkəm əxlaqi, mənəvi bazaya malik insanlar öz ailəsi, öz vətəni, öz xalqı uğrunda döyüşürlər. Biz bunun əyani nümunəsini sonuncu dəfə 2-ci Qarabağ müharibəsində gördük. Vətənpərvər, namuslu, əxlaqlı insanlarımız öz canlarını qurban verib vətənimizi azad etdilər.

İndi sadəcə düşünək- müasirlik adı altında mənəvi dəyərlərə tüpürən, həyatını ancaq əyləncə üzərində quran, bivec həyat tərzi sürən, eqoist və yelbeyin gənclər öz vətəni, öz xalqı uğrunda canını qurban edərmi? Əlbəttə ki xeyr. Bax təkcə bu nümunədən gənc nəsli milli-mənəvi dəyərlərimizin bazasında formalaşdırmağın xalqımız və dövlətimiz üçün həyati əhəmiyyətli məsələ olduğunu anlamaq olar.

Ona görə də, dövlətimiz milli-mənəvi ideoloji baza üzərində inkişaf siyasəti yürüdür. Prezident İlham Əliyevin bu məsələlərə həsr olunmuş çıxışlarından bir neçə frazanı burada qeyd etmək istərdim: "Biz milli-mədəni dəyərlərimizi gələcək nəsillər üçün qorumalıyıq ki, Azərbaycanın davamlı, uzunmüddətli inkişafı təmin edilsin. Biz öz köklərimizə həmişə bağlı olmalıyıq və gənc nəsil də bu ruhda tərbiyə almalıdır.... Bəzi ölkələr qloballaşma adı altında öz təsir dairələrini genişləndirmək, xalqları bir növ öz milli köklərindən ayırmaq, qoparmaq, o tarixi bağları qırmaq istəyirlər ki, xalqlar öz köklərindən ayrılsınlar, öz əcdadlarını, tarixlərini unutsunlar, sadəcə amorf, kosmopolit bir kütləyə çevrilsinlər və onları istənilən istiqamətə göndərmək mümkün olsun. Budur bunun təməlində dayanan əsas məqsəd.

...Bəzi hallarda belə sözlər işlədilir ki, biz inteqrasiya etməliyik, Avropaya inteqrasiya etməliyik. Mən artıq dəfələrlə demişəm, biz heç yerə inteqrasiya etməməliyik. Biz öz milli dəyərlərimiz üzərində möhkəm dövlət qurmuşuq. Nə qədər ki, bizim hökumət iqtidardadır, bu, belə olacaq".

### Mənəvi Dəyərlərin Təbliği Fondu nə işlə məşğuldur?

Azərbaycan multikultural və çoxkonfessiyalı cəmiyyət olduğundan burada müxtəlif xalqların milli mədəniyyətinin və dəyərlərinin qorunması, həmçinin fərqli dini icmaların fəaliyyəti üçün bütün imkanlar təmin olunub. Bu istiqamətdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Komitə bu sahədə uğurlu fəaliyyəti ilə həm ölkədə dövlət-din-cəmiyyət münasibətlərinin yüksək səviyyədə tənzimlənməsinə həm də beynəlxalq aləmdə ölkəmizin bu sahədə nümunə kimi göstərilməsinə öz töhfəsini verir.

Komitənin nəzdində sırf bu sahədə fəaliyyət göstərən bir fond da mövcuddur- Mənəvi Dəyərlərin Təbliği Fondu. Bu gün 6 yaşını qeyd edən bu Fond kiçik imkanlarla bu istiqamətdə çox böyük işlər həyata keçirib. Fondun həyata keçirdiyi işlər milli və dini dəyərlərimizin, mədəniyytimizin gənc nəslə çatdırılması və yaşadılması əsas prinsip olaraq müəyyənləşib.

Qeyd etməliyik ki, Fond bu işin öhdəsindən uğurla gəlir. Mənəvi dəyərlərimizin qorunması və təbliği üçün Fond tərəfindən yüzlərlə kitab, sənədli film, veriliş maliyyələşdirilib, çoxsaylı tədbirlər təşkil olunub. Jurnalistlər arasında mütamadi olaraq təşkil edilən müsabiqələr bu mövzuların mətbuat və televiziyada davamlı və geniş spektrdə işıqlandırılmasını təmin edir. Xüsusən, ailə dəyərlərimizin, dini dəyərlərin, milli mədəniyyətimizin, tariximizin təbliğinə istiqamətlənmiş bu fəaliyyət bu sahədə ciddi təsir mexanizmi yaradıb. Hesab edirəm ki, bu Fondun imkanlarını və fəaliyyət gücünü artırmaq lazımdır. Qloballaşma dövründə milli sifətimizi itirməmək, milli dəyərlərimizi qorumaq üçün bu sahədə işləri gücləndirmək vacibdir.

Ümumiyyətlə, dövlətimizin milli və dini dəyərlərimizi qorumaq, yaşatmaq istiqamətində fəaliyyəti dünyanın bütün ölkələrinə örnək olmaqla yanaşı, həm də qloballaşma dövründə multikultural cəmiyyətin necə yaşamalı olduğuna dair gözəl bir nümunədir.

*Elçin Bayramlı*

# Yeddi ərazimiz geri qaytarılır

*Qərb Rusiyanı öz tərəfinə çəkə bilmədi*




Məlum olduğu kimi, Ermənistanın baş naziri Nikol Paşinyan Qranadada Azərbaycan ərazisini konkret faktlarla göstərməklə anklavlar məsələsinin də həll edilməsi faktını ortaya qoyur. Daha dəqiq desək, söhbət Azərbaycanın Ermənistan tərəfindən hələ də işğalda saxlanılan 8 kəndindən (Qazağın 7-i, Naxçıvanın Kərki kəndi) gedir. Çünki bu kəndlər də 86,6 min kv km-lik əraziyə daxildir. Sözügedən məsələdə isə Azərbaycanla Ermənistan arasında danışıqlar olacaq. Siyasi praktikada bu kimi məsələlər iki istiqamətdə həllini tapır. Ya hər kəsin anklavı öz ərazisində qalır və ərazi dəyişdirilməsi baş vermir. İkinci variantda isə ərazilər geri qaytarılır. Hər halda bu istiqamətdə ciddi bir problemin olacağı gözlənilmir. Azərbaycanın istəkləri yerinə yetiriləcək.

### Avropanın bəzi dairələri Zəngəzurun itirilməsindən ehtiyat edirlər

"Bakı" politoloqlar klubunun rəhbəri, siyasi ekspert Zaur Məmmədovun fikrincə, bir il öncə baş tutan Praqa görüşündə də məhz Makron Azərbaycan ərazisinin konkret rəqəmlərlə Almatı sazişinə istinad edilməsini istəmişdi. "Nə qədər qəribə də olsa, Fransa prezidenti iki ölkənin ərazisinin konkret rəqəmlərlə bəyan edilməsində maraqlı olub. Bununla bağlı görünür ki, onun öz planları var. Amma bu proses ümumilikdə Azərbaycanın qalibiyyəti Ermənistanın məğlubiyyəti ilə nəticələndi", - deyə siyasi şərhçi bildirib. Buradan isə daha bir nəticəyə gəlmək olar. Daha bir fakt ondan ibarətdir ki, Avropanın bəzi dairələri Zəngəzurun itirilməsindən ehtiyat edirlər. Daha doğrusu, onlar həmin bölgənin Azərbaycanın nəzarətinə qayıtmasından narahatdırlar. Bununla bağlı da şərhini irəli sürən politoloqa görə, Cənubi Qafqazın gələcəyi ilə bağlı Qərbdə müəyyən baxışlar mövcuddur: "Almaniya və Fransa media sahələrində Zəngəzur vasitəsi ilə Azərbaycanın Naxçıvanla kommunikasiya xəttinin olub-olmayacağı məsələsi gündəmə gətirilir. Həmçinin, Azərbaycanın güc yolu ilə bunu həll etmək istəyinin mümkünlüyü və mümkünsüzlüyü haqqında mülahizələr irəli sürülür".

### Bakı niyə Qranadadan imtina etdi?

Lakin həmin dairələr ya unudurlar, ya da görməzlikdən gəlirlər ki, sülhlə bağlı Azərbaycan danışıqlara hər zaman hazır olub. Azərbaycanın əsas istəyi ondan ibarətdir ki, kimsə danışıqlarda diktə edən tərəf olmasın. Azərbaycan Prezidenti İlham Əliyevin Qranada səfərindən imtina etməsi də, məhz bununla bağlı idi. Rəsmi Bakı bu müstəvidə nə kimi yanaşmaların olacağını bilirdi. "Burada Fransa və Almaniyanın hiylələri ilə bağlı müxtəlif yanaşmalar gözlənilirdi. Çünki Avropa Parlamenti Azərbaycana qarşı qərəzli sanksiya qəbulu üçün Avropa İttifaqına müraciət edəcəkdisə, bundan sonra həmin qərarlardan ölkəmizə təzyiq vasitəsi kimi istifadə olunacaqdı. Belə olan halda həmin ölkələr Azərbaycana sanksiya və yaxud istəklərini həll etmək dilemması ilə çıxış edəcəkdilər. Ona görə də, Bakı bu görüşlərdən imtina etdi. Proseslərin gedişi göstərdi ki, Bakı bununla çox böyük üstünlüklər əldə etdi", - deyə Zaur Məmmədov bildirib.

### Şarl Mişelin tez-tez dəyişən mövqeyi: o nə demək istəyir?

Eyni zamanda, danışığın stenoqrammasına nəzər yetirdikdə burada Azərbaycan növbəti dəfə öz konkret mövqeyini ortaya qoyduğu görünür. Xatırlaya bilərik ki, bir müddət öncə Azərbaycan tərəfi Şarl Mişelin bu istiqamətdəki fəaliyyətini təqdir edirdi. Amma son zamanlar Şarl Mişelin və Almaniyanın mövqeyində Fransa ilə yaxınlaşma müşahidə edildi. Emmanuel Makronun təsirləri nəticəsində Almaniyanın ənənəvi balanslı mövqeyindən daha çox erməniləri müdafiə etməsi faktı önə çıxdı. Eyni zamanda, Şarl Mişelin son bəyanatları etnik hüquqlar və digər məsələlərlə bağlı mövqeyi sözsüz ki, Azərbaycanı narahat edən məqamlardan idi. Məhz bu baxımdan, əgər Avropa İttifaqı danışıqlarda öz rolunu itirmək istəmirsə, o zaman məsələyə ərazi bütövlüyü kontekstindən yanaşmalıdır.

### Bu kimi siyasi oyunlar kənardan açıq şəkildə görünür

Politoloqa görə, əgər söhbət ermənilərdən gedirsə, onlara qarşı heç bir etnik təmizləmə aparılmayıb. "Ermənilər könüllü şəkildə geri qayıdıb, təhlükəsiz şəraitdə yaşaya bilər. Sadəcə olaraq, Qərb burada ikili oyun oynayır. Onlar Rusiyanın bölgədən çıxarılmasını istəyir. Digər tərəfdən isə ermənilərin qayıdışı ilə bağlı çıxışlar edir. Ermənistana öz hərbi qüvvələrini gətirmək istəyən Qərb digər yandan Azərbaycanla bağlı gilzin şəkildə danışıqlar aparır", - deyə o bildirib.

Daha bir görünən fakt budur ki, Azərbaycan məsələsində Qərb Rusiyanı öz yanına çəkmək istəyir. Əslində, bu kimi siyasi oyunlar kənardan açıq şəkildə görünür. Ona görə də, Azərbaycan vacib xarici siyasət xətti yürüdür. Nəticədə isə Qərb Cənubi Qafqazda Rusiyaya uduzur. Proseslər isə bilavasitə Azərbaycanın xeyrinə inkişaf edir, özü də tam sürət həddi ilə.

***Afət Tahirqızı***

## "Nar" "Breyn Rinq" intellekt yarışına dəstəyini davam etdirir



"Nar"ın dəstəyi ilə keçirilən "Breyn Rinq" bilik yarışının 22-ci mövsümü başlayır. Yeni mövsümdə 9 region və 7 universiteti təmsil edən 19 komanda "Bilik" kuboku uğrunda mübarizə aparacaq. Yarışı hər həftənin bazar günü saat 17:00-da İctimai Televiziyada izləmək mümkündür. Qaydalara görə, il ərzində 2 mövsüm oyun oynanılır. 1-ci mövsümdə "Nar" Kuboku, 2-ci mövsümdə isə "Bilik" Kubokunun sahibi bəlli olur. İlin sonunda isə hər kubokun qalibi, yəni 2 komanda Azərbaycan çempionu titulu uğrunda yarışır. İndiki mövsümdə"Bilik" Kubokunun qalibi bu titul uğrunda "Birbank" komandası ilə mübarizə aparacaq.

Qeyd edək ki, elm və təhsilə dəstək "Nar"ın korporativ sosial məsuliyyət strategiyalarının əsas istiqamətlərindən biridir. Mobil operatorun gerçəkləşdirdiyi digər KSM layihələri haqqında nar.az/projects səhifəsindən məlumat əldə edə bilərsiniz.





## Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər

"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş təcimayyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2023-cü il oktyabr ayının 10-da YAP Mingəçevir şəhər təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Mingəçevir şəhər Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub. Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.

Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar. Sonda xatirə fotosu çəkdirilib.

## "Onların daşı da erməni kilsəsindən göndərilib"

*MÜNASİBƏT*



"Milliyyətindən, irqindən, dinindən asılı olmayaraq dünyanın hər yerində savadlılar savadsızları, gücsüzlər, güclüləri, qabiliyyətsizlər qabiliyyətliləri, vicdanı kasadlar vicdanlı insanları qısqanır. Bəzən bunu açıq-aşkar, nümayişkaranə şəkildə üzdə edirlər, çox zaman isə bu xislətlərini gizlin saxlamağa çalışırlar. Çox az hallarda olur ki, bir insan ondan daha savadlı, daha qabiliyyətli, daha güclü və nəhayət daha vicdanlı adamla rəğbət bəsləyir və bu cür adamları təqdir edir". Bunu SİA-ya açıqlamasında "Azadlıq Hərəkatçılar Birliyi"nin sədri Təhmasib Novruzov deyib.

Onun sözlərinə görə, Azərbaycanın siyasi həyatında özünü peşəkar siyasətçi hesab edən elilər, tofiqlər və onlara bənzəyən savadsız, gücsüz, qabiliyyətsiz və vicdanının harda olduğunu bilməyən insanabənzərlər də var və həmişə də olacaq: "Bir faktı xatırlatmaq istərdim. Avropada oturub erməni milyonları hesabına Azərbaycana hədyanlar yağdıran zatsızlardan biri, Qabil adlı dədəsini belə tanımayan bir gədə o qədər qızışdı ki, 2020-ci ilin əvvəllərində çıxıb sosial şəbəkədə "Bu hakimiyyət nəinki Qarabağı, hətta bircə rayonu işğaldan azad eləsə qulağımı kəsməsəm kopoyoğluyam" demişdi. Əminəm ki, buna Azərbaycanda baxanlar çox olub. İndi həmin gədə boynuna alıb qulağını kəsmədiyi bəs deyilmiş kimi, yenə erməni pulu hesabına Azərbaycana hədyanlar yağdırmağa davam edir. Belə adamlarda vicdan bir yana, abır, həya, ismət deyilən məfhumlardan da əsər-əlamət olmur. Tofiq də, Əli də çoxdan diri ikən meyitə çevrilmiş varlıqlar siyahısındadırlar. Onlar və onlara bənzəyənlər Azərbaycanın İlham Əliyevin rəhbərliyi altında bu qədər qələbələrə imza atması, bu qədər kosmik sürətlə inkişaf etməsi, təbii ki, sevindirici deyil. Özlərini indiki iqtidara rəqib hesab edirlər, bəli, nə qədər gülməli və paradoksal səslənsə də, məhz rəqib hesab edib də, bu iqtidarın siyasətini təftiş etmək fikrinə düşmələrinin bir mənası var: yaxşılar yaxşı əməlləri ilə xalqın sevgisini nə qədər çox artırsalar, pislərin pis əməlləri də ona uyğun olaraq xalqın onlara nifrətini artırır.

Nifrətin girdabında olan belə adamlar şimaldan cənuba, şərqdən qərbə özlərinə himayədarlar axtara-axtara heç nəyə nail ola bilmədiklərini görüb, sadəcə revanş hissi ilə yaşayırlar. Amma unudurlar ki, xalq artıq birmənalı olaraq İlham Əliyev zirvəsinə elə bağlanıb ki, belələri o zirvəyə ha daş atsalar da, qayıdıb öz başlarına dəyəcək. Çünki onların daşı erməni kilsəsindən göndərilib".

# Azərbaycan-Gürcüstan əlaqələri: faydalı əməkdaşlıq, mehriban qonşuluq



## İLHAM ƏLİYEV:
**"Biz iki lider kimi Azərbaycan və Gürcüstan arasında dostluq, qardaşlıq əlaqələrini gücləndiririk"**

## İRAKLİ QARİBAŞVİLİ:
**"Xalqlarımız arasında ənənəvi dostluq davam edir və cənab Prezident İlham Əliyev bu işə çox böyük töhfə verib"**

Müstəqil dövlət kimi, Azərbaycanın dünya dövlətləri, təşkilatları ilə əməkdaşlığı və dostluq münasibətləri dövlətlər arasında qarşılıqlı anlaşmanın qurulmasına və davamlı olmasına təsirini göstərir. Mövcud münasibətlər çoxşaxəli, qarşılıqlı maraq əsasında qurulub, əməkdaşlıq əlaqələrinin inkişafına üstünlük verilib. Belə ki, o cümlədən Azərbaycan-Gürcüstan dövlətləri arasında siyasi-iqtisadi münasibətlərin indiki səviyyəyə gəlib çatması iki ölkənin xalqları arasında tarixən mövcud olan sıx əlaqələr, mehriban qonşuluq münasibətləri, bu günə qədər imzalanmış sənədlər əməkdaşlıq üçün yeni imkanlar açıb. İki ölkə arasında diplomatik əlaqələr - 31 il əvvəl 1992-ci ildə qurulub. 1995-ci ilin fevral ayında Bakıda Gürcüstan səfirliyinin, 1996-cı ilin mart ayında isə Tbilisidə Azərbaycan səfirliyinin açılışı ikitərəfli əlaqələrin inkişafına əlavə stimul verib. İki ölkənin münasibətlərinin tarixinə nəzər salsaq bir daha bu fikri böyük əminliklə qeyd edə bilərik ki, 1993-cü ildə ulu öndər Heydər Əliyevin və Gürcüstanın keçmiş Prezidenti Eduard Şevardnadzenin hakimiyyətə gəlməsi əməkdaşlıqda yeni səhifə açdı. Hər iki liderin Azərbaycanla Gürcüstan arasında əlaqələrin yüksələn xətlə inkişafında rolu böyükdür. Təbii ki, burada onların şəxsi nüfuzu, eyni zamanda, bir-birlərinə yaxın dost münasibətləri də əhəmiyyətli rol oynadı. Eyni regionda, mürəkkəb coğrafi arazidə yerləşən hər iki ölkənin əsrlərə söykənən qonşuluq, dostluq əlaqələri müstəqillik illərində daha da genişləndi, iştirak etdikləri qlobal infrastruktur layihələrinin həlli ilə dünyanın enerji xəritəsinin dəyişməsinə təsir göstərdilər. Bu baxımdan tam əminliklə söyləmək olar ki, möhkəm iradə, etibarlı təməl üzərində formalaşan münasibətlər bu gün artıq dövlətlərarası tərəfdaşlığı gücləndirən amil kimi diqqəti cəlb edir. Bu gün Azərbaycan və Gürcüstan bütün sahələrdə çox uğurla əməkdaşlıq edir, siyasi, iqtisadi münasibətlər, hər iki xalq arasında əsrlərdən bəri davam edən mehriban qonşuluq əlaqələri getdikcə möhkəmlənir. Azərbaycanın qonşu ölkələrlə bağlı siyasətində Gürcüstanla münasibətlər xüsusi əhəmiyyət kəsb edir. Belə ki, Azərbaycan öz enerji resurslarının Avropa bazarlarına çatdırılmasında, eyni zamanda, Şərqdən Qərbə gedən yüklərin daşınmasında Gürcüstan mühüm tranzit rol oynayır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin dəvəti ilə oktyabrın 8-də Gürcüstana işgüzar səfəri ölkələrimiz arasında yüksək səviyyədə olan əlaqələrin daha da inkişafına və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın gücləndirilməsinə töhfə vermək məqsədi daşıyır. Bu səfər Prezident İlham Əliyevin Gürcüstana sayca 11-ci səfəridir. Bundan əvvəl ötən il oktyabrın 24-də dövlətimizin başçısı Gürcüstanda (Mçxetada) işgüzar səfərdə olub.

### AZƏRBAYCAN PREZİDENTİ:
**"Biz iki lider kimi Azərbaycan və Gürcüstan arasında dostluq, qardaşlıq əlaqələrini gücləndiririk"**

Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 8-də Tbilisidə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə birgə mətbuata bəyanatında bildirib ki, biz iki lider kimi ölkələrimiz və xalqlarımız arasındakı dostluq, qardaşlıq əlaqələrini gücləndiririk, möhkəmləndiririk.

Ənənəvi görüşlərin ölkələrimizin bir-birinə daha yaxın olması, xalqlarımızın bir-biri ilə daha sıx dostluq etməsi məqsədinə xidmət etdiyini vurğulayan dövlətimizin başçısı bildirib: "Əsrlər boyu bizim xalqlarımız mehriban qonşuluq və dostluq şəraitində yaşamışdır, bu gün də bu, belədir. Bu, həm ölkələrimiz üçün vacibdir, eyni zamanda, bölgə üçün, o cümlədən ilk növbədə Cənubi Qafqaz üçün çox vacib şərtdir".

Dövlətimizin başçısı, həmçinin Ulu Öndər Heydər Əliyevin xatirəsinə Gürcüstan hökuməti və xalqı tərəfindən böyük diqqət və hörmət olduğunu, qeyd edərək Gürcüstanın Baş nazirinə və gürcü xalqına təşəkkürünü bildirərək nümayiş etdirilən sərgidə bir şəkilin diqqətini daha çox cəlb etdiyini vurğulayıb: "Heydər Əliyev və Eduard Şevardnadzenin şəklidir. Onların dostluğunun çox böyük tarixçəsi var. Sovet dövründə onlar bir-birilə sıx təmasda idilər və o vaxt sovet Gürcüstanının, sovet Azərbaycanının rəhbərləri kimi xalqlarımızı daha da birləşdirmək üçün böyük səylər göstərmişdilər. Bu iki parlaq şəxsiyyət sovet dövründə də öz istedadı, öz cəsarəti və öz xalqlarına olan bağlılığı ilə fərqlənirdi. Tale elə gətirdi ki, onlar təxminən eyni vaxtda müstəqil Gürcüstana və müstəqil Azərbaycana rəhbərlik etməyə başladılar. Xalqlarımız üçün ən ağır dövrdə, - o acı və ağrılı günləri biz xatırlayırıq, - məhz onların liderliyi sayəsində həm Gürcüstan, həm Azərbaycan inamla müstəqilliyə doğru addımlamağa başlamışdır. Məhz onların fəaliyyəti nəticəsində müstəqil Gürcüstan, müstəqil Azərbaycan inkişaf etməyə başlamışdır. Biz - onların davamçıları, bu gün onların yolu ilə gedirik".

### AZƏRBAYCAN PREZİDENTİ:
**"Cənubi Qafqazda sülhün bərqərar olmasının vaxtı çatıb"**

Prezident İlham Əliyev Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə birgə mətbuata bəyanatında deyib ki, bu gün Gürcüstan və Azərbaycan qat-qat daha inkişaf etmiş ölkələrdir: "Ancaq çağırışlar demək olar ki, eynidir, problemlər eynidir. Cənubi Qafqazda sülhün bərqərar olmasının vaxtı çatıb".

Azərbaycanın və Gürcüstanın hər zaman bir-birinin ərazi bütövlüyünü dəstəklədiyini vurğulayan dövlətimizin başçısı bildirib: "Bütün beynəlxalq təşkilatlarda xalqlarımızın maraqlarını əks etdirən bu və ya digər məsələlərdə bir-birimizi dəstəkləyirik və bir-birimizin yanındayıq. Ölkələrin ərazi bütövlüyü beynəlxalq hüququn fundamental prinsipidir və ərazi bütövlüyünün pozulması qəbuledilməzdir. Azərbaycanın bu məsələ ilə bağlı mövqeyi birmənalıdır".

Dövlətimizin başçısı mətbuata bəyanatında da vurğulayıb ki, Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsi imzalansa, Cənubi Qafqazda tamamilə yeni siyasi vəziyyət yaranacaq: "Üç il bundan əvvəl İkinci Qarabağ müharibəsinin nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir, keçən ay bütün ölkə üzrə suverenliyini bərpa etmişdir. İndi isə Ermənistan ilə Azərbaycan arasında imzalanacaq sülh müqaviləsi üzrə fəal çalışmalıyıq. Əgər biz buna nail olsaq, - mən buna ümidliyəm, - bu zaman Cənubi Qafqazda tamamilə yeni bir siyasi vəziyyət yaranacaq".

Prezident İlham Əliyev Cənubi Qafqazda sülhün bərqərar olması, eləcə də Gürcüstanın vasitəçiliyi və bu əməkdaşlığa üçtərəfli formatda başlaya biləcəklərini qeyd edən dövlətimizin başçısı vurğulayıb ki, Cənubi Qafqaza sülh lazımdır və indi məqam gəlib çatıb və hesab edirəm ki, bu şansı əldən vermək böyük səhv olar: "Bildiyiniz kimi, bu gün bir neçə ölkə və eyni zamanda, bəzi beynəlxalq təşkilatlar Ermənistan və Azərbaycan arasında gedən normallaşma prosesində öz dəstəyini göstərməyə çalışırlar. Biz bunu alqışlayırıq. Əgər bu, birtərəfli və qərəzli deyilsə, əlbəttə, biz istənilən vasitəçiliyi və yardımı qəbul edirik. Ancaq mənim fikrimcə, ən düzgün seçim həm tarixi əlaqələri, həm coğrafi amili nəzərə alaraq, əlbəttə ki, bu sahədə Gürcüstan ola bilərdi. Mən cənab Baş nazirə minnətdaram ki, o da bu sahədə mümkün olan vasitəçilik imkanlarını ortaya qoyur".

Dövlətimizin başçısı mətbuata bəyanatında onu da bildirdi ki, hər zaman Gürcüstanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyirik. Necə ki, Gürcüstan Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini dəstəkləyir: "Hesab edirəm ki, biz buna hazır olan ölkə kimi Ermənistandan da eyni yanaşmanı gözləməliyik və Ermənistan tərəfindən də razılıq olarsa, dərhal bizim aidiyyəti qurumların rəhbərləri Gürcüstanda həm ikitərəfli, həm üçtərəfli görüşə gələ bilərlər".

### PREZİDENT İLHAM ƏLİYEV:
**"Azərbaycanın və Gürcüstanın birgə həyata keçirdiyi layihələr bir çox ölkənin enerji və nəqliyyat təhlükəsizliyinə xidmət göstərir"**

"Həm enerji, həm də nəqliyyat sahəsində çox böyük planlarımız var". Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 8-də Tbilisidə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə birgə mətbuata bəyanatında deyib. Bu sahədə böyük uğurların olduğunu vurğulayan dövlətimizin başçısı bildirib: "Həmçinin gələcək planlarımız üzrə birmənalı əməkdaşlığın dərinləşməsinə hesablanmış gündəlik vardır. Biz böyük məmnuniyyətlə Gürcüstanın yeni infrastruktur layihələrinin yaranmasında iştirak edə bilərik. Bu gün biz Anakliya limanının inşası ilə bağlı fikir mübadiləsi apardıq. Bildiyiniz kimi, Azərbaycanın Gürcüstanın Qara dəniz sahilində Kulevi limanı var, o limanın genişləndirilməsi, əlbəttə ki, əməkdaşlığımızı daha da gücləndirəcək. Təbii ki, Bakı-Tbilisi-Qars dəmir yolunun aşırma qabiliyyətinin 5 dəfədən çox artırılması və yaxın gələcəkdə fəaliyyətə başlaması da, əlbəttə, Orta Dəhlizin gücləndirilməsinə xidmət göstərəcək. Bizim birgə həyata keçirdiyimiz enerji və nəqliyyat layihələri bu gün bir çox ölkənin enerji və nəqliyyat təhlükəsizliyinə xidmət göstərir". "O ki qaldı, gələcək planlarımıza, burada da əməkdaşlığın dərinləşməsinə hesablanmış gündəlik var. Biz Gürcüstanın yeni infrastruktur layihələrinin yaranmasında böyük məmnuniyyətlə iştirak edə bilərik", - deyən Azərbaycan Prezidenti İlham Əliyev iki ölkənin enerji, nəqliyyat və digər istiqamətlərdə çoxlu planların olduğunu söyləyib.

### AZƏRBAYCAN PREZİDENTİ:
**"Azərbaycanın və Gürcüstanın icra etdiyi layihələr təkcə Cənubi Qafqaz üçün deyil, Avrasiya qitəsi üçün böyük məna daşıyır"**

Prezidenti İlham Əliyev mətbuata bəyanatında vurğulayıb ki, bu gün Gürcüstan və Azərbaycan tərəfindən birgə və digər qonşu ölkələrlə birlikdə icra edilən layihələr təkcə Cənubi Qafqaz regionu üçün deyil, Avrasiya qitəsi üçün böyük məna daşıyır: "Biz buna hazırıq, bizdə həm güclü siyasi iradə var, artıq yaradılmış güclü infrastruktur var və ən əsası, əsas amil Gürcüstan-Azərbaycan dostluğu və strateji tərəfdaşlığıdır. Dövlətimizin başçısı energetika sahəsində ənənəvi sahələrdən başqa bu gün bizi birləşdirən yaşıl enerji dəhlizi layihəsi olduğunu deyərək bildirib ki, burada da biz, Gürcüstan və Azərbaycan - iki qardaş ölkə Avropa ölkələri ilə sıx əməkdaşlıq edirik.

### BAŞ NAZİR İRAKLİ QARİBAŞVİLİ:
**"Xalqlarımız arasında dostluğun, qardaşlığın möhkəmləndirilməsində Prezident İlham Əliyevin böyük xidmətləri var"**

"Azərbaycan Gürcüstanın strateji tərəfdaşıdır, dost ölkədir. Bizim ölkələrimiz arasında əsrlər boyu dostluq və qardaşlıq münasibətləri olub. Xalqlarımız arasında ənənəvi dostluq davam edir və cənab Prezident İlham Əliyev bu işə çox böyük töhfə verib. Bu dostluğun və qardaşlığın möhkəmləndirilməsində onun böyük xidmətləri var". Bu sözləri Gürcüstanın Baş naziri İrakli Qaribaşvili oktyabrın 8-də Prezident İlham Əliyevlə birlikdə keçirdiyi brifinqdə söyləyib. Onun sözlərinə görə, Gürcüstan Azərbaycanla uzunmüddətli strateji tərəfdaşlığını uğurla davam etdirir.

Ölkələrimiz arasındakı dostluq əlaqələrinin təməlinin dahi şəxsiyyət, Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu vurğulayan Baş nazir deyib: "Eyni zamanda, onu da qeyd etmək istəyirəm ki, cənab Prezidentin atası mərhum Prezident Heydər Əliyevin bizim dostluğumuzun inkişafında müstəsna xidmətləri və töhfəsi olub, onun təməlini o qoyubdur. Biz burada Heydər Əliyevin 100 illiyinə həsr edilmiş sərgi ilə də tanış olduq. Mən fürsətdən istifadə edərək, cənab Prezident İlham Əliyevi və Azərbaycan xalqını bu münasibətlə də təbrik edirəm".

Beləliklə, ölkələrimiz arasında əlaqələrin və əməkdaşlığın inkişaf dinamikası onu deməyə əsas verir ki, Azərbaycan-Gürcüstan münasibətləri gələcəkdə daha da genişlənəcək və yeni sahələri əhatə edəcəkdir. Bu hər iki ölkə liderlərinin - Azərbaycan Prezidenti İlham Əliyev və gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin birgə mətbuat bəyanatında səslənən fikirlər bunun sübutudur. Və bu iki ölkə liderlər Azərbaycan -_Gürcüstan arasında dostluq, qardaşlıq əlaqələrini gücləndirir. Dövlət başçımızın söylədiyi kimi: "Biz iki lider kimi Azərbaycan və Gürcüstan arasında dostluq, qardaşlıq əlaqələrini gücləndiririk".

**RƏFİQƏ KAMALQIZI**

# Karvan bizi Qarabağa, Şərqi Zəngəzura aparır





**Böyük Qayıdış davam edir və əzəli sakinlər doğma yurduna qayıdır. Torpaqla görüş, doğma yuvada, ocaqda yandırılan çıraqlar insanların illərlə həsrətdə olduğu arzularını gerçəkliyə çevirib. Köç karvanları onları 30 il əvvəl çətin bir şəraitdə, qovhaqovla, silah gücünə məcburi bir şəkildə başılovlu çıxdıqları evlərinə aparır. Göz yaşları ilə əzizlərini itirən insanlar doğma torpaqlarından bir ovuc götürərək özlərinə bir nişan təsəli ilə o torpaqlardan güc ilə ayrılmışdılar. Necə çətin, amansız illəri idi. Ümidsiz qalan insanlar evsiz-eşiksiz torpaqlarını tərk etdi. Başlıbel qətliamı, Xocalı soyqırımı  Yaddaşımızdan heç zaman silinməyəcək qanlı günlər. Qarlı, boranlı illər. Qan donduran faciələr**

Bu gün isə nisgilli ömür yaşayanlar öz yurd yerlərinə qayıdırlar. Yenidən həyat gülür, yaşayıb-yaratmağa bir çağırış vardır. Dövlət başçısının işğaldan azad olunan ərazilərimizə səfərləri çərçivəsində dövlətimizin başçısının görülən işlərlə tanışlığı və yeni təməllərin qoyulması, tapşırıq və göstərişlərin verilməsi Böyük qayıdışı sürətləndirir, köç karvanları davamlı olaraq əzəli torpaqlara yol alır. İşğaldan azad olunan bir sıra ərazilərimiz kimi, Füzuli şəhərinə də keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Oktyabrın 10-da növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınıb. Bu mərhələdə Füzuli şəhərinə daha 21 ailə - 88 nəfər köçürüldü.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü olaraq, təhlükəsiz şəkildə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Abadlaşan və daha da gözəlləşən Füzuli şəhərinin sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Qeyd edək ki, köçürülən ailələr Füzuli şəhərində yenidən tikilən evlərdə məskunlaşırlar.Bununla da Füzuli şəhərində 165 ailənin, yəni, 602 nəfərin daimi məskunlaşması təmin edilmişdir.

## İNSANLARIN RAHAT, FİRAVAN HƏYATININ TƏMİNATI

Bu gün işğaldan azad olunan digər ərazilərimiz kimi, Füzuli də abadlıq-quruculuq meydanına çevrilib. Ən əsası isə onu qeyd edək ki, işğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qaydışımızla əzəli Qarabağ torpağında insanların rahat, firavan yaşamasına istiqamətlənib. Füzuli abadlaşır və yenidən qurulur. Füzuli Beynəlxalq Hava Limanının 2021-ci il yanvarın 14-də təməlinin qoyulması və 2021-ci il oktyabrın 26-da açılışı buradakı görülən işlərin əyani təzahürüdür. Cəmi 9 ay ərzində müasir standartlara cavab verən beynəlxalq hava limanının inşa edilib istifadəyə verilməsi və bu layihənin tam dağıdılmış, heç bir adi infrastrukturu belə olmayan bir ərazidə həyata keçirilməsi Azərbaycan dövlətinin iqtisadi qüdrətinin göstəricisidir. Füzuli Beynəlxalq Hava Limanı, xüsusən bu rayonun Qarabağın və Şərqi Zəngəzurun hava qapısı rolu oynadığını birmənalı surətdə təsbit edir.

Azərbaycan Prezidenti İlham Əliyevin müdrik siyasəti, siyasi iradəsi ilə Füzuli-Şuşa yolunun təməlinin qoyulması və qısa müddətdə müasir tələblər əsasında və keyfiyyətli surətdə istifadəyə verilməsi, o cümlədən Füzuli-Ağdam, Füzuli-Hadrut və digər avtomobil yollarının inşası xüsusi ilə qeyd olunmalıdır.

## ƏZƏLİ TORPAQLARDA YENİ HƏYAT

Artıq işğaldan azad olunan ərazilərimizin əzəli sakinləri öz dədə-baba yurdlarına qayıdırlar. Zəngilan rayonu Ağalı kəndində canlı həyat yaşanılır, Tərtərin Talış kəndinə, eləcə də Laçına köçlər yola salınıb. Qarabağ regionuna 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulur. Bildiyimiz kimi, Ağdamda Xıdırlı kəndinin dövlət başçısı tərəfindən ötən il təməli qoyulmuşdur. Ağdam şəhərinin mərkəzindən 3 kilometr məsafədə yerləşən Xıdırlı kəndində 5990 nəfərin (1500 ailə) məskunlaşması planlaşdırılıb. Birinci mərhələdə kəndə 2951 nəfərin köçürülməsi üçün 719 fərdi evin tikilməsi planlaşdırılır. Kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün də hər cür şərait yaradılacaq. Burada mədəniyyət və əyləncə mərkəzləri, dini, xidmət, kommersiya müəssisələri, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə ümumilikdə 2595 nəfərin işlə təmin olunması planlaşdırılır. Ağdam şəhərinin təsdiq edilmiş Baş planına uyğun olaraq, əhalinin səmərəli və yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələrinin salınması ilə yanaşı, burada işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması hədəfinə uyğun olaraq, məhəllədəki binaların enerji təchizatında alternativ enerji mənbələrindən istifadə üzrə konseptual həllər işlənmişdir. Bütün bunlarla yanaşı, Ağdam şəhərində 2-ci yaşayış məhəlləsi salınır. Ümumi sahəsi 14 hektara yaxın olan yaşayış məhəlləsinin ərazisinin böyük bir hissəsi yaşıllıq zonasından ibarət olacaq. Məhəllə Ağdamın mərkəzi küçəsində, şəhərin təsdiq edilmiş ümumi Baş planına uyğun salınır.

Azərbaycanın dilbər guşəsi Qarabağımız və Şərqi Zəngəzur yeni dövrünü yaşayır. Qarabağımız müasir dünyanın ahəngində qurulur, ona yeni həyat verilir. Bu gün Şuşamızda, Zəngilanda, Laçında və digər ərazilərdə böyük abadlıq-quruculuq işlərinə başlanılıb. Tezliklə işğaldan azad olunan hər bir şəhər, qəsəbə və kənd müasir məkana çevriləcəkdir və hər qarış torpağımız əzəli sakinlərinin yolunu gözləyir.

***Nəzakət ƏLƏDDİNQIZI***



İLHAM

# Fransız yağı yeyib, sancıya düşənlər

**Faktlarla sübuta yetirilir ki, harada yalan, şər və böhtan varsa, Azərbaycanın dağıdıcı müxalifəti orada vurnuxmadadır. Nədən ki, hay-küy qaldırmaq, vay-şüvən qoparmaq üçün əllərinə fürsət düşür. Onlar üçün öyrənmək və aydınlaşdırmaq önəmli deyil, problem nədən yaranıb və həlli istiqamətində hansı addımların atılması planlaşdırılır. Əsas odur ki, həmin məqamda danışmaq, ağız-ağıza verib ulamaq üçün imkanları var. Hərəsi bir istiqamətdə iş aparır. Deyək ki, biri çıxır sosial şəbəkələrdə vanqıldayır, digəri Sevinc Osmanqızı deyilən məxluqun TV-sində aləmi-cahana car çəkməyə çalışır, başqa birisi də xarici maraqlı dairələrə donos ünvanlayıb, Azərbaycan haqqında növbəti qərəzli hesabat üçün öz məhsulunu təklif edir.**

Beləcə, öz ağılları ilə Azərbaycana pislik etdiklərini düşünürlər. Lakin qanmaq istəmirlər ki, apardıqları və təqdim etdikləri məlumatlar və məhsullar qalib xalq "it hürər karvan keçər" kimi dəyərləndirir. Onsuz da son 30 ildə dünyanın bəzi gücləri Azərbaycanın haqq işinə ədalətsiz yanaşma nümayiş etdiriblər. İstər 44 günlük Vətən Müharibəsində, istərsə də 23 saat 44 dəqiqə çəkən antiterror xarakterli tədbirlərdən sonra Azərbaycana qarşı qarayaxma kampaniyası həyata keçiriblər. Hətta Avropa parlamenti kimi mötəbər bir qurum tarixində ilk dəfə ermənilərə dədəlik etdiklərini açıq mətnlə göstərən anormal qərar qəbul etdilər. Makron hər gün elə Azərbaycanın dağıdıcı müxalifətinin trolları kimi ermənilərin bədbəxt günə düşməsindən ahu-zar edib, göz yaşı tökür. Şarl Mişel də fransız yağı yeyib, qarınağrısına düşənlərdən olduğunu, Kristofer Smit kimi senatorlar da Azərbaycanın Ermənistan üzərində parlaq qələbəsindən başağrısına tutulduqlarını göstəriblər. Bu baxımdan sapı özümüzdən olub, erməni lobbisinin baltası rolunda çıxış edən dağıdıcı müxalif zatıqırıqların üzüdönüklüyü heç də problem yaratmır. Əksinə, gözlənilən hal kimi qiymətləndirilir. Çünki başa düşülür ki, xarici maraqlı dairələrdən, xüsusilə də, erməni lobbisindən maddi və mənəvi dəstək alan dağıdıcı müxalifət başbilənləri elə onlar kimi düşünüb, elə onlar kimi sayıqlayacaqlar. Necə deyərlər, "havanı kim sifarişi verirsə, o da oynayır". Əlləri arzu etdikləri mərtəbəyə çatmayanda başlayırlar köhnə palan içi tökməyə.

Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü Gültəkin Hacıbəyli durub-durub ağlına yerləşdirib və sayıqlayır ki, Laçında şəhərdaxili yolda çatlar yaranıb. Körpülərin tikintisi, min kilometrlərlə magistral yolların çəkilməsi, göz oxşayan kənd və qəsəbələrin, şəhərlərin salınması gözlərinə görünmür, danışılan xoş sözləri eşitmir, haradasa yolda çatlar yaranıb onu fəlakətə çeviriblər. Vay sizin dayaz ağlınıza və olmayan dərrakənizə. AXCP sədri Əli Kərimli ağlına yerləşdirib ki, rus sülhməramlıları Qarabağdan çıxmalıdır. Deyən və başa salan lazımdır ki, onsuz da rus sülhməramlıları bölgəni tərk edirlər. Lokal antiterror tədbirlərindən sonra 15-ə qədər müşahidə məntəqəsini bağlamaları da bunu təsdiq edir. Lakin Ə.Kərimli bunu görmək istəmir, danışmağa mövzu tapmadığından deyinir: "Rusiya ordusunun bundan sonra da Qarabağda qalmaq istəyinə, ilk növbədə, Azərbaycan ictimai fikri, sosial şəbəkə fəalları qətiyyətlə yox deməlidir. Sonra da hökumətdən hamılıqla tələb etməliyik ki, erməni əhali tərk edəndən sonra da Rusiya ordusunun Qarabağda qalmaq istəyinə itaətkarcasına susmasın, Rusiyanın bu istəyinə qəti şəkildə yox desin. Rusiya hakimiyyəti isə Qarabağı tərk etmək niyyətində olmadığını artıq rəsmən açıqladı. Bütün dünyanın, eləcə də Azərbaycan ictimaiyyətinin diqqətini Həmas-İsrail savaşında olduğu bir vaxtda Rusiya xarici işlər nazirinin MDB ölkələri üzrə müavini Mixail Qaluzin belə bir açıqlama verib: "Rusiya sülhməramlı kontingentinin Qarabağda olmasına tələbat var və bu, gələcəkdə də zəruri olacaq". Qaluzin onu da əminliklə bildirib ki, Rusiya "sülhməramlılarının" Qarabağda qalma məsələsi Moskva və Bakı tərəfindən həll olunacaq".

AXCP Ali Məclisinin sədri Nurəddin Məmmədli, AXCP sədr müavinləri Fuad Qəhrəmanlı və Seymur Həzi də liderciklərinin sayıqlamasını təkrarlamaqdan yorulmur. Bu isə onların xüsusi tapşırıq aldıqlarını göstərir. Sabah dağıdıcı müxalif ünsürlər sifariş əsasında Arayikə, Vardanyana, Saakyana və digər məşhər ayağına çəkilən terrorçuların müdafiəsinə qalxsalar təəccüblü görünməyəcək. Çünki dost dostun hansı günündə lazımdır? Təbii ki, zamanında Vardanyan kefinəqulu bir dövran sürürdü, Arayik, Saakyan və digərləri də Xankəndinin nəzarətsiz ərazi olduğundan meydan sulayırdılar. Heç şübhəsiz ki, narkotika ticarətindən, sərvətlərimizin talanmasından əldə olunan vəsaitlərdən erməni lobbisinin hesabına köçürülən pullar olurdu. Oradan da dağıdıcı müxalif ünsürlər də bəhrələnirdi. Cəmil Həsənli səbəbsiz yerə deməmişdir ki, "mən hər ay xarici fondan 200 ABŞ dolları almışam". AXCP sədri Əli Kərimli Gürcüstan vasitəsi ilə cibi dolusu pullar əldə edib. Eyni ilə Tofiq Yaqublu, Gültəkin Hacıbəyli də erməni lobbisinin qazanın dibini yalamaqla özlərinin əyin-başlarını düzəldib, yaşayışlarını sahmana salıblar. Lakin bu hal müvəqqəti xarakter daşıyır. Çünki "haynan gələn vaynan gedər" deyiblər. Dağıdıcı müxalif ünsürlərin də qazancları elə dəmir barmaqlıqlar arasından boylanan Vardanyanın uzun müddətə həbs atılması ilə başa çatacaq, elə siyasi varlıqları da.

# Yeni analara yüklənən neqativlər: SÜDÜN VAR?

***Hamiləlik və ondan sonrakı dövr bir qadının həyatında ən çətin dönəmlərdən biridir. Bu, xüsusilə, ilk hamiləlik təcrübəsinə aiddir. Təcrübə yoxdur və insan normal olaraq hər bir məqamı düşünür. Bəs, yeni ana olacaq və ya yeni doğum edən bu həssas analara necə davranmaq lazımdır?***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

İlk olaraq hələ uşaq doğulmamışdan çox əvvəldən bir sıra ailə üzvləri gənc anaya ana südü ilə bağlı israrlar edirlər. Belə ki, "Uşaq mütləq ana südü ilə böyüyər", "Hökmən süd verməlisən", "Süd verməsən körpə bütün günü xəstə olacaq", "Böyüyəndə sağlam olmayacaq" kimi ifadələrlə onun beynini daha da yükləyirlər. Heç kim düşünmür ki, bəlkə bu qadının hər hansı ciddi bir problemi var və heç süd verə bilməyəcək. Axı bu qədər israr kimə və nəyə lazımdır? Hər halda bir ana övladının sağlam və xoşbəxt olması üçün əlindən gələn hər şeyi edəcək. Övladını heç kim onun anasından çox düşünüb sevməyəcək. İcazə verin övladı ilə bağlı qərarları o özü düşünüb versin. Təbii ki, təcrübəli insanların məsləhəti önəmlidir. Bunu heç kim də pislik üçün etmir. Amma yersiz israr bu qadınları daha da pis hala sala bilər. Hamilələrə məsləhət verən, rəfiqələr, analar, qayınanalar, bacılar, baldızlar yox, mütəxəssis həkimlər olmalıdır. Yəni, önəmli olan ətrafın dediyi yox, həkimin söylədiyidir. Hamilələrə neqativ fikirlər söyləyərək fikirlərini qarışdırıb onları həyəcana salmayın.

Uşaqlıqda o qədər ana südü ilə qidalanıb yanından yel əsən kimi xəstə olan insanlar var ki  Həm süni qida, həm də ana südü ilə qidalananlar da xəstələnə bilər. Bunlar hər biri insan üçündür, normaldır və olmalıdır. Ana südü ilə qidalanan uşaqlar əsla xəstələnməz deyə bir şey yoxdur.

Hamilə qadınlara olunan digər israrlardan biri də normal doğuşla bağlıdır. Belə ki, hələ uşaq 1-2 həftəlikkən bütün nəsil-kök





düşür hamilə qadının üstünə ki, bəs normal doğum et, sağlamlıqdır, əvvəllər qeysəriyyəfilan yox idi, biz hamımız belə doğmuşuq. Əvvəla bir düşünün ki, bu qadın sizdən məsləhət istəyirmi? Yaxud bu barədə sizin fikriniz ona maraqlıdırmı? Əgər ehtiyac duyub sizdən məsləhət istəsə, maraqlansa və soruşsa öz təcrübələrinizi onunla bölüşün. Bu zaman ürək bulandırmaq yerinə həm siz faydalı iş görmüş olarsınız, həm də yeni ana olacaq gənc bir qadına yardım edərsiniz.

Yaxud hamilələrə neqativ yükləyirlər ki, "Məndə qeysəriyyə oldu, çox ağrım oldu, 1 həftə yeriyə bilmədim". Ya da deyirlər ki, "Normal doğuş çox qorxuludur. Dəhşətli ağrılar olur". Bu zaman hamilə qadın düzgün qərar verə bilmir. Belə ki, ona doğuş uyğundursa doğuşdan, keysəriyyə uyğundursa keysəriyyədən başqalarının söylədikləri ucbatından qorxub imtina edir.

Digər bir məsələ isə hamiləlik zamanı gənc anaların müxtəlif testlər verməsi ilə bağlıdır. Bu zaman bir çoxları başlayır ki, boş şeydir, biz hamiləlik vaxtı belə etməmişdik, sən də etmə. Əgər bir ananın ürəyi bu testlə daha rahat olacaqsa, icazə verin onu etsin. Mütəxəssislər söyləyir ki, hər kəsin hamiləlik dövrü fərqli keçir. Hətta bir ananın üç hamiləliyinin üçü də bir-birindən tamamilə fərqli formada ola bilər.

Ətrafın hamilə qadınların beyninə köklədiyi bu fikirlər səbəbindən həkimlər onları düzgün yönləndirməkdə çətinlik çəkir.




**Nümunələr:**

Bir dəfə bir ailə dostumuzun evinə qonaq getmişdik. Qızları 2 ay əvvəl evlənib. Qızın anasından biri soruşdu ki, bəs, qızın iki aydır evlənib hamilə deyil, digəri də dedi ki, hamilə olsa normal doğum edəcək? Ana isə cavabında "Vallah, mən qızıma heç bu barədə sual verməmişəm. Bunu etik hesab etmirəm. İnsanlara bu məsələ niyə belə maraqlıdır heç bilmirəm. Əgər mən anası olaraq qızımdan bunu soruşmağı özümə ayıb bilirəmsə, başqasının necə rahatlıqla soruşduğunu anlamıram. Hansı qərarı verəcəksə, mən anası olaraq onun yanında olacağam. Siz bu barədə qəti narahat olmayın".

Ana südü ilə bağlı travması olan bir ananın fikirlərini qeyd etmək istəyirəm: "Normal olaraq ilk dəfə ana olmuşdum və nə uşaq baxmaq, nə də süd vermək barədə heç bir anlayışım yox idi. Təbii ki, internetdən də müəyyən qədər araşdırmışdım. Amma yalnız araşdırmaqla da olmur. Südvermə ilə bağlı o qədər ağrılarım var idi ki  Yanıma gəlib-gedən hamı da südüm ilə maraqlanırdı. Mən və övladım heç kəsə maraqlı deyildik. Niyə gələn hər kəs salam verib südümü soruşur? Heç kəs mənim psixoloji durumumu düşünmürdü. Hamı elə bir əldən israr edirdi ki, süd ver, süd ver. 2 həftə sonra mütəxəssis yanına üz tutdum. İndi deyəcəklər ki, keçmişdə analar mütəxəssis yanına gediblər? Cavabında deyim ki, hər kəs özü bilər, amma mən getmişəm. Mütəxəssis yanına getdikdən sonra südümü sağmağı öyrəndim. Sonra bərk xəstələndim və südüm kəsildi. Yəni, yenə problemlər yaşadım.

Bu səfər kim nə deyər deyə düşünmə-



dim və sırf öz istəyim üzrə "Övladımı ana südü ilə bəsləyəcəm" dedim. Südümü hər gün dondurmağa başladım. Hər şey normaya düşdü".

Yaxşı olar ki, yaxınları belə olsa yeni ana olan xanımların üzərinə bu qədər getməsinlər. Analar, əsla bədbinliyə qapılmayın. Övladına süd verə bilməmək sizin yaxşı ana olmadığınız anlamına gəlməz. Xüsusilə, ilk təcrübədə hər kəsdə müəyyən problemlər yarana bilər. Bu, normaldır. Önəmli olan cəhd edib doğruları öyrənmək istəməkdir. Düzdür, ana südü uşaq üçün vacibdir. Amma olmursa da nə edək? Bu zaman biz pis ana sayılmalıyıq?!

Əziz hamilələr, istər siz, istərsə də sizə verilən sualların cavabının yalnız həkimdə olduğunu insanlara bildirin. İndi elə bir dövrdür ki, həkimlərlə ünsiyyət yaradıb istənilən sualı ünvanlamaq çox rahatdır. Unutmayın ki, yanlış qərarlar yanlış da nəticələrə səbəb ola bilər.

***Ayşən Vəli***

# Ömrümüzdən keçən müharibələr: itirdiklərimiz, qazandıqlarımız

1988-ci il idi. Azərbaycan Sovet Sosialist Respublikaları İttifaqının tərkibində, yəni böyük imperiyanın buxovlarında əzilməkdəydi. Biz onda məktəbli idik. Ermənilərin xalqımıza qarşı soyqırımları, əzəli torpaqlarımızın vaxtilə onlara verilməsi haqqında çox məlumatımız var idi. Ancaq bizə elə gəlirdi ki, həmin hadisələr tarixin müxtəlif zamanlarında baş verib, bitib, artıq o cür hadisələr təkrarlanmaz. Axı ermənilərlə qonşu idik, gedirdilər, gəlirdilər... Azərbaycanın bütün şəhər, rayon, kəndlərində bizimlə birlikdə yaşayırdılar. Nə bilərdik ki, bu qonşuluqdan kənar olmuşlar yeni planlarla, yeni arzularla yaşayırlar. Elə həmin il sərhədlərimizdən gələn xəbərlər bütün həyatımızı altüst etdi. Ermənilər sərhəd rayonlarımızı atəşə tutur, insanlar qorxu, vahimə içərisində yaşayırdılar. Beləliklə, günlər keçdikcə xəbərlər bəzən səngiyir, bəzənsə yenidən gündəmə gəlir, hər kəsin diqqəti sərhədlərimizə yönəlirdi. Sən demə bütün bunlar qarşıda Birinci Qarabağ Müharibəsinin başlanması üçün görülən tədbirlər imiş...



### Birinci Qarabağ Müharibəsi: satılmış torpaqlar, ordusuz xalq, böyük itki

Beləliklə, Birinci Qarabağ Müharibəsi başladı. Əgər 1988-1990-cı illər dağıntıları, səksəkələri, itkiləri ilə bu müharibənin başlanğıcı idisə, sonrakı iki il isə torpaqlarımızın bir-birinin ardınca ermənilər tərəfindən işğal olunduğu illər oldu. Niyə işğal olunurdu bu əzəli Azərbaycan torpaqları, səbəb nə idi? Bunun bir çox səbəbləri var idi. Birincisi, bu hələ iki əsr öncənin nəsihəti idi ki, ermənilər Azərbaycan torpaqlarında yerləşdirilməli, yerli əhali sıxışdırılıb aradan çıxarılmalıdır. İkincisi, artıq 1918-ci ildə olduğu kimi, xalqın müstəqillik qığılcımlarının alova çevrilməsi SSRİ-ni narahat etməyə başlamışdı. Bu respublikanı əldə, həm də əsarətdə saxlamaq, eyni zamanda ermənilərin "Böyük Ermənistan" yaratmaq arzuları fonunda işğal siyasətindən daha əhəmiyyətlisi ola bilməzdi.

İşğal siyasəti isə çox da çətinliklə başa gəlmədi. Çünki ölkəmizə rəhbərlik edən, xalqını qoyub yadların sözünü dinləyən, xalqını, mənəviyyatını, namus anlamında olan torpağını yox, vəzifəsini düşünən ozamankı Azərbaycan rəhbərləri ilə bu işdə əlbirlik asanlıqla başa gəldi. Qarabağlılar bütün bunlardan xəbərsizcə öz torpaqlarını qorumağa çalışarkən, ölkəmizin digər yerlərindən onlara köməyə gedənlər canlarını bu torpaqlar yolunda qurban verərkən sən demə o torpaqlar çoxdan satılıbmış. Bu səbəbdən də orada döyüşənlərə heç bir yarbdım, köməklik göstərilmirdi. Bütün bunları sonradan torpağından didərgin salınanlar, zorla qovulanlar, köçürülənlər, hansı ki, o döyüşlərdə iştirak etmişlər, etiraf edirdilər. Etiraf edirdilər ki, dəfələrlə yardın edilməsi tələbinə baxmayaraq rəhbərlik susurdu.

Adı var, özü yox orduya sahib idik. SSRİ Azərbaycanda güclü ordunun formalaşmasına əslə maraqlı deyildi. Çünki bizim ordumuzun olması ona sərf etmirdi. Bu, böyük bir siyasətin nəticəsi idi ki, ordumuz o səviyyədə saxlanılırdı. Bunu o dövrlərdə əsgəri xidmətdə olub, fəhlə batalyonlarında xidmətini başa vuran övladlarımızın da simasında yaxşı görmüşdük, öz-özlüyümüzdə təsdiq etmişdik. Ordumuz bizdən tonlarla neft mənimsəyənlərin əvəzində bizə verdikləri müasirlikdən əsər-əlaməti olmayan köhnə silah, sursat, texnika yığnağı idi. Bu isə möhkəm silahlandırıb üstümüzə göndərdikləri qonşu ermənin qarşısında bizi aciz vəziyyətinə salmaqdan başqa bir şey deyildi.



O zaman işğal olunan Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Zəngilan, Füzuli, Xocalı və bunlar kimi digər rayonlarımızın əhalisi düşmən qarşısına ov silahı, təsərrüfat alətləri ilə çıxırdılar. Nə edəcəkdilər o qədər güclü silahlanmış erməniyə? Bizim rəhbərlik necə? Bilə-bilə ki, torpaqları satıb, heç bir köməklik də göstərməyəcək, ermənilər isə ən müasir silahlarla silahlanıblar, 5 ilə qədər əsgəri xidmətdə saxladığı əsgərləri də, o torpaqların dinc sakinlərini də gözünü belə qırpmadan qırğına verirdi. Bilə-bilə insanlarımızın məhvinə, şəhid olmasına, yaralanmasına şərait yaradırdı.

Elə bu səbəbdən də Birinci Qarabağ Müharibəsində itkilərimizin sayı çox oldu. Prezident cənab İlham Əliyevin dediyi kimi: "Birinci Qarabağ müharibəsində şəhidlərimiz olub, bu günə qədər 4 minə yaxın insan itkin düşmüş hesab olunur. Aydın məsələdir ki, onlar həyatda deyil, həyatını itiriblər və ümumiyyətlə, 15 mindən çox şəhidimiz olubdur. Buna baxmayaraq, torpaqlarımız da əldən gedib".

Çünki o müharibə sadəcə insanların öz ata-baba yurdlarını qorumaq müharibəsi idi. Nəticə etibarilə isə o qədər torpağı itirdik, soydaşlarımız bir qərinəyə qədər qaçqın, köçkün, didərgin adlarını daşımalı, ölkənin şəhər və rayonlarına sığınmalı oldular.

### 30 il Qarabağsız

Bəli, ötən 30 ilin başlanğıcında edilən böyük səhvlə düz otuz il Qarabağsız yaşamalı oldu qarabağlılar. Qurulu evlərini, əzizlərinin məzarlarını, həyət-bacalarını, həyət dolu mal-heyvanlarını, toyuq-cücələrini, bar üstündə saysız-hesabsız ağaclarını, ən əsası isə torpaq ətrini geridə buraxıb didərginə, köçkünə, qaçqına çevrildilər. Müharibədən sonrakı ilk illərdə şəraitsiz evlərdə, çadır şəhərciklərdə olmazın çətinlikləri ilə qarşılaşdılar. Sonrakı illərdə onlar üçün hərtərəfli şərait yaradıldı, problemləri dövlətimiz tərəfindən diqqətdə saxlanıldı. Lakin onların yurd təşnəsi hələ sızlamaqda, torpaqlarına qovuşmaq istəkləri içlərini göynəltməkdə idi. Dünyasını dəyişən yüzlərlə insan oldu 30 ildə. Ürəkləri yurd əşqiylə parça-parça olmuş insan. Bir daha torpağının ətrini duymayan, əzizinin qəbrini ziyarət edə bilməyən, ürəyi nisgilli, qərib məzarlı insanlar...

Qarabağı bir daha görə bilməyən insanlar... O torpaqlara bir daha ayağı dəyməyən insanlar. O bulaqların suyundan içə bilməyən insanlar. Qarabağ yalnız yuxularında onların olan insanlar...

İnsanlar o taleni yaşamağa vadar edilmişdilər. Nə idi onların günahı? Kimlərinsə vəzifə kürsüsünə qurban getmiş, doğma evindən illərlə ayrı düşmüş, sinəsinə dağ çəkilmiş, ata-qardaşını, övladını mürahibənin alovlarına qurban vermiş, ən əsası isə torpağı-namusu, şərəfi əlindən alınmış insanların yaşadığı acıların cavabını kim verəcək? Əlbəttə torpaqları gözüyumulu satanlar verəcək. Həm də tarix qarşısında verəcəklər buna cavab. Dünya durduqca övladları, nəvə-nəticələri, kötücələrinin hər birindən atababalarının səhvi soruşulacaq. Onlar buna cavab verməli olacaqlar. Utanacaqlar, xəcalət çəkəcəklər, hansı nəslin davamçıları olduqları üçün hər zaman bu üz qarasını daşıyacaqlar. Qoy tarix və zaman onların qiymətini də, cavabını da özü versin.

### İkinci Qarabağ Müharibəsi: dövlət-xalq birliyi, güclü ordu, ZƏFƏR

Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizdə ikinci dəfə hakimiyyətə gəlişindən sonra torpaqlarımızın geri alınması hər gün



həllini gözləyən məsələ olmuşdu. Torpaqlarımızın geri qaytarılmasının danışıqlar yolu ilə mümkün olmazsa, müharibə yolu ilə olacağını söyləyən Ulu Öndərin davamçısı Prezident cənab İlham Əliyevin də ölkəmizə rəhbərlik etdiyi illərdə bu məsələ fəaliyyətinin əsas istiqaməti olmuşdur. 17 il ərzində beynəlxalq təşkilatlara müraciət edilmiş, onlar Azərbaycanın haqq səsinə səs verməyə, ədalətsizliyə son qoymağa çağırılmış, erməni xisləti, yalanı dünyanın mötəbər kürsülərindən ifşa edilmişdir.

Ötən illər ərzində dövlət-xalq birliyi ölkənin hərtərəfli inkişafına səbəb olmuş, xüsusilə iqtisadiyyatımız güclənmiş, bu isə güclü ordunun yaranması ilə nəticələnmişdir. Hər il dövlət büdcəsindən ordumuzun inkişafına ayrılan vəsait müasir təchizat məsələlərinin həlli olmuşdur ki, bunun 2020-ci ilin sentyabr ayının 27-dən noyabrın 10-dək davam edən İkinci Qarabağ Müharibəsində şahidi olduq. Həm də tək biz yox, bütün dünya şahidi oldu ki, Azərbaycan nəyə qadir imiş.

44 günlük müharibədə əldə etdiyimiz Zəfərə gənclərimizin sayəsində nail olduq. Bu isə ötən illərdə ölkəmizdə gənc nəslin düzgün yetişdirilməsinin, onların vətənpərvər ruhda böyüməsinin nəticələri idi. Vətənin harayına səs verən, sinəsini Vətən yolunda sipər edən, ölümün gözünə dik baxan gənclərimiz bu xalqa qələbənin şirinliyini daddırdılar. Onlar Ali Baş Komandanın ətrafında sıx birləşərək planlı şəkildə-az itki ilə və qısa vaxtda torpaqlarımızı qəsbkarlardan geri aldılar.

*Ardı Səh. 12*

# Ömrümüzdən keçən müharibələr: itirdiklərimiz, qazandıqlarımız

Əvvəli Səh. 11

Dövlətimizin başçısının dediyi kimi: "...İkinci Qarabağ müharibəsində şəhidlərimiz az olub. Halbuki, hər bir şəhidin həyatı təkrarolunmazdır, əvəzolunmazdır. Ancaq əməliyyatlar aparılan zaman vacib şərtlərdən biri də o idi ki, itkilərimiz az olsun və torpaqlarımız da geri qayıtdı". Bəli, bütün dünyanın şahidi olduğu həmrəyliyimizlə, yaşından asılı olmayaraq yüksək vətənpərvərliyimizlə, 1990-cı illərlə müqayisəyəgəlməz ordumuzla, ən əsası isə qüdrətli sərkərdəmizlə Qarabağda Zəfər qazandıq.



## Zəfərimiz Birinci Qarabağ Müharibəsi ilə İkinci Qarabağ Müharibəsinin fərqini ortaya qoydu

Bu Zəfər "Birinci Qarabağ Müharibəsində niyə uduzduq, niyə o qədər şəhid verdik" suallarına cavab oldu. İkinci Qarabağ Müharibəsində qələbəmizin səbəbini izah etdi. Nəticə etibarilə Zəfərimizin əldə olunmasında Vətən sevgisi amilinin dayandığını göstərdi. Bu Zəfərlə o illərdə ölkəmizin rəhbərlərinin sevgisizlikləri fonunda böyük Vətən sevgisini ölkəmizin rəhbərində gördük. Həm də onun sonsuz olduğunu gördük. Bu sevgi bölünüb torpaqlarımıza paylananda isə onların hər birinin azad olunması, anası Azərbaycana qaytarılması, ölkəmizin ərazi bütövlüyünün bərpasının böyük arzu olduğunu gördük. Gördük ki, ölkəmizin rəhbəri bütün gücü ordu quruculuğuna, dünyanın fikrini Qarabağa yönəltdi. Qarabağın geri alınması üçün illərlə iş apardı. Dünyaya üz tutdu, torpaqlarımızın dinc yolla, qan tökülmədən alınmasına çalışdı. Lakin buna nail olmayanda müharibə yolu ilə düşməni yerində oturtmasını, diz çökdürməsini də gördük.

Əgər Birinci Qarabağ Müharibəsində 15 mindən çox şəhidimiz olmuşdursa, İkinci Qarabağ Müharibəsində 3 minədək şəhidimiz oldu. O qədər şəhidlə əldən gedən torpaqlar geri alındı. Bu, müharibənin planlı şəkildə aparılmasının, güclü ordunun, orduya bacarıqla, səriştə ilə rəhbərliyin göstəricisi, yazılan şanlı tarixdir. O tarix ki, vərəqləndikcə hünərdən, qeyrətdən, namusdan, ləyaqətdən, vətənpərvərlikdən, həmrəylikdən söhbət açacaq. Minlərlə şəhidi olan Birinci Qarabağ Müharibəsi isə bu tarixin səhifələrinə əliyalın insanların hünəri ilə yanaşı, həm də xalqına xəyanət edən rəhbərlərin adı, pis əməlləri ilə yazılıb. Bax, Zəfər bunları ortaya qoydu.









## Biz müzəffər xalq kimi yaşayırıq

Bu gün ölkəmizdə həm Birinci, həm də İkinci Qarabağ Müharibəsi şəhidlərinin və qazilərinin qiymətləndirilməsi, adlarının əbədiləşdirilməsi, onların ailələrinə və qazilərə göstərilən diqqət, dövlətimiz tərəfindən onların hər birinin övlad qayğısı ilə əhatə olunması insanda qürur yaradır. Bunun özü də dünyaya bir mesajdır. Mesajdır ki, bizim Vətənimiz, torpağımız nə qədər əzizdirsə, övladlarımız da o qədər dəyərlidir. Həyatını torpaq uğrunda qurban verən, sağlamlığını Vətən üçün fəda edənlər əbədi bir sevgiyə layiqdirlər. Çünki onlar bu sevgiləri ilə yanaşı, həm də böyük bir xalqa müzəffər xalq kimi yaşamağı nəsib ediblər. Prezident cənab İlham Əliyevin dediyi kimi: Mən yenə də deyirəm, ömrün əvvəli də, sonu da var, heç kim həyatda əbədi qalmır. Amma şəhid olmaq, bu, doğrudan da xalq qarşısında, tarix və gələcək nəsillər qarşısında böyük xidmətdir. Şəhid əbədi qalır, əməyi və qəhrəmanlığı əvəzolunmazdır. Çünki canını fəda edir ki, torpaqlar azad olunsun və ədalət bərpa olunsun, xalqımızın ləyaqəti bərpa olunsun. Çünki otuz il torpaqlarımız işğal altında qalıb və xalqımız mənəvi əzablar çəkib... Biz artıq ilyarımdır ki, müzəffər xalq kimi yaşayırıq. Əvvəllər torpaqları işğal edilmiş xalq kimi yaşamışıq.

Budur, üç ildir ki, Zəfərli Azərbaycanda yaşayırıq. Ötən üç ildə ölkəmiz yeni Zəfərlər də qazanıb. Qarabağ və Şərqi Zəngəzur üç ildir ki, cənnətə çevrilir. Məcburi köçkünlərin bir qismi artıq ata-baba torpaqlarına-evlərinə köçürülüblər.

Ötən zaman kəsiyində erməni separatçıları ilə mübarizə apararaq onları Qarabağdan çıxara bildik. Birinci Qarabağ müharibəsinin, Xocalı qətliamının səbəbkarları həbs olunublar, onlar qanun qarşısında cavab verəcəklər.

Bütün bunlar isə onu təsdiq edir ki, Azərbaycanda möhkəm dövlət-xalq birliyi var. Birlik isə harada varsa, orada yalnız uğur və Qələbə var.

***Mətanət Məmmədova***

# Hədəf alınan mülki insanlar: Gəncə terroru

30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan Ermənistan 44 günlük Vətən müharibəsində döyüş meydanında uduzduğunu aydın dərk etdiyindən beynəlxalq konvensiyalara zidd topladığı silahlarla Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə də mülki əhalinin kompakt yaşadığı ərazilərdə raket zərbələri endirməsi, Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasının üzü idi. Təbii ki, bu və ya digər amillər Azərbaycanı haqq savaşından çəkindirmir və Azərbaycan Ordusu öz torpaqlarının azad olunması məqsədi ilə mübarizəsini davam etdirirdi. Döyüş meydanında sarsıdıcı məğlubiyyətə uğrayan Ermənistanın cəbhə xəttindən uzaqda yerləşən yaşayış məntəqələrini və mülki obyektləri hədəfə alması dünyanın bir çox ölkələrindən ölkəmizə ezam olunmuş KİV nümayəndələrinin də gözü qarşısında baş verirdi. Ermənistanın atəşkəsə əməl etməməsi hiddət doğururdu. Azərbaycan isə əməliyyat zamanı yalnız hərbi obyektləri hədəfə alır, ancaq Qarabağ bölgəsindəki ərazilərdə əməliyyat həyata keçirirdi. Amma Ermənistan Gəncəni, Mingəçeviri, Bərdəni, mülki əhalinin yaşadığı digər yerləri hədəfə alırdı. Əlbəttə ki, əsas məqsəd panika, xaos və qorxu yaratmaq idi. Dövlətimizin güclü iradəsi, güclü ordumuzun məntiqi nəticəsi idi ki, bu hücumlar bizi hədəfimizdən uzaqlaşdırmadı.



## 10 MÜLKİ ŞƏXS HƏYATINI İTİRDİ VƏ 34-Ü YARALANDI

Vətən müharibəsi dövründə də davam edən Ermənistanın növbəti cinayətləri, mülki əhaliyə qarşı edilən terrorlar çirkin siyasətin məntiqi idi. Belə ki, 2020-ci ilin oktyabrın 10-da Rusiya Federasiyası, Azərbaycan Respublikası və Ermənistan Respublikasının Xarici İşlər nazirləri humanitar atəşkəs elan edilməsi haqqında bəyanat qəbul etmişdi. Lakin Ermənistan Respublikası nəinki buna əməl etməyib, əksinə, oktyabrın 11-də onu ciddi şəkildə pozaraq öz ərazisindən Gəncə və digər şəhərlərimizi "SKAD" tipli raket kompleksindən atəşə tutmuşdu. Həmin tarixdə Gəncəyə atılan ballistik raket nəticəsində 10 mülki şəxs həyatını itirib, 34 mülki şəxs isə yaralanıb. Yaralanan insanlardan 9-u uşaq, 10-u qadındır. Azərbaycan Respublikasına qarşı Ermənistanın təcavüzünün davamlılığını göstərən bu təxribat müharibə cinayətləri olmaqla, Ermənistanın, ilk növbədə, BMT Nizamnaməsini, Müharibə aparılmasının adət və qaydalarını müəyyən edən Haaqa Konvensiyalarını, Müharibə qurbanlarının müdafiəsi haqqında 1949-cu il Cenevrə konvensiyalarını və həmin konvensiyalara edilən 1977-ci il tarixli Əlavə protokolları, Beynəlxalq Cinayət Məhkəməsinin Statutunu, o cümlədən ayrı-ayrı silah növlərindən istifadə ilə bağlı beynəlxalq müqavilələrlə müəyyən edilmiş hüquq normalarını, həmçinin mülki əhalinin hərbi əməliyyatların təhlükəsindən müdafiə edilməsi ilə bağlı ümumi hüquq prinsipini kobud şəkildə pozulması deməkdir. Ermənistanın bu cür silahlarla təchiz edənlər də həmin silahların qanunsuz istifadəsinə görə məsuliyyət daşıyırlar.







Oktyabrın 14-də səhər saatlarından başlayaraq Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazisi artilleriya atəşinə tutulmuşdu. Tərtər rayonunun müxtəlif istiqamətlərdən ağır artilleriyadan atəşə tutulması nəticəsində Dəyərli kənd ümumi orta məktəbinə ziyan dəymiş, məktəbin həyətinə top mərmisinin düşməsi nəticəsində təhsil müəssisəsinin tədris korpusu yararsız hala düşmüşdü. Ümumilikdə 14 oktyabr tarixinədək artıq 40-a yaxın ümumi təhsil müəssisəsinə düşmən təcavüzü nəticəsində zərər dəymişdi. Ermənistanın humanitar atəşkəsi pozmasına baxmayaraq, rəşadətli Azərbaycan Ordusunun hər gün yeni kəndləri və şəhərləri işğaldan azad etməsi bizi Zəfər tariximizə yaxınlaşdırırdı.

Artıq Azərbaycan düşmənə öz gücünü göstərmişdi. 2020-ci ilin oktyabr ayının 11-nə qədər qısa bir zamanda Tərtər rayonunun Suqovuşan və Talış kəndləri, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq kəndləri, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi, Cəbrayıl şəhəri və rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Decal, Mahmudlu, Cəfərabad kəndləri, Xocavənd rayonunun Hadrut qəsəbəsi və Sur kəndi, Füzuli rayonunun Yuxarı Güzlək, Görəzilli kəndləri və digər ərazilərimiz işğaldan azad olunmuşdur.

## GƏNCƏDƏ MÜLKİ ƏHALİYƏ QARŞI TÖRƏDİLƏN TERROR AKTI İLƏ BAĞLI DÜNYA BİRLİYİNƏ ÇAĞIRIŞ

"Ermənistan silahlı qüvvələri Azərbaycanın yaşayış məntəqələrini intensiv atəşə tutmaqda davam edirlər. Bu, humanitar atəşkəs rejiminin, habelə 1949-cu il Cenevrə konvensiyalarının kobud şəkildə pozulması deməkdir. Bu gecə saat 2 radələrində Gəncə şəhərinə amansızlığına görə misli görünməmiş zərbə endirilib". Bu fikirləri Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulması ilə əlaqədar 11 oktyabr 2020-ci il tarixində rəsmi "Instagram" səhifəsində paylaşım etmişdi. "Bizim şəhərlərin və kəndlərin atəşə tutulması demək olar ki, dünən bütün gün ərzində davam edib" - bildirən Mehriban xanım Əliyeva qeyd edib ki, humanitar atəşkəs rejiminin qüvvəyə mindiyi andan ermənilər tərəfindən Azərbaycan Respublikasının bir sıra rayonlarına 548 mərmi atılıb. Mehriban Əliyeva Ermənistan silahlı qüvvələrinin Gəncə şəhərində mülki əhaliyə qarşı törətdiyi qanlı terror aktı ilə bağlı dünya birliyinə çağırış etdi. "Mən dünya birliyini baş verən bu hadisələrə laqeyd qalmamağa çağırıram. Beynəlxalq təşkilatlar, hüquq müdafiə strukturları, kütləvi informasiya vasitələri və ictimai rəyin liderləri Azərbaycanın mülki əhalisinə qarşı bu cür vəhşicəsinə amansızlığı kəskin pisləməlidirlər. Yerevan beynəlxalq konvensiyalara, habelə BMT Təhlükəsizlik Şurasının erməni işğalçı qüvvələrini Azərbaycana qarşı təcavüzə son qoymağa çağıran qətnamələrinə etinasızlığı dayandırmalıdır. Rusiyanın vasitəçiliyi ilə Moskvada əldə edilmiş razılaşmalara açıq-aşkar hörmətsizlik nümayiş etdirən Ermənistan Cənubi Qafqazda nəticələri onun üçün dağıdıcı olacaq müharibənin yeni mərhələsinə təhrik edir".

Düşmənin gecə saat 4 radələrində Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan "Azərbaycan" İstilik Elektrik Stansiyasını hədəfə almaqla cəbhə zonasından 100 kilometrdən çox uzaqda yerləşən iri sənaye şəhəri Mingəçevirə atdığı raketlər Ordumuzun Hava Hücumundan müdafiə qüvvələri tərəfindən zərərsizləşdirilmişdi. İtirdikləri mövqeləri geri qaytarmaq məqsədilə oktyabrın 10-dan 11-nə keçən gecə hücuma keçməyə cəhd göstərən düşmənin qüvvə və vasitələri Azərbaycan Ordusunun bölmələri tərəfindən məhv edildi. Azərbaycan Ordusunun keçirdiyi fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin

3 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 5 ədəd 2S1 "Qvozdika" özüyeriyən haubitsası, 8 ədəd hava hücumundan müdafiə sistemi və radiolokasiya stansiyası sıradan çıxarıldı. Azərbaycan Hərbi Hava Qüvvələri tərəfindən Ermənistan silahlı qüvvələrinin 41-ci əlahiddə artilleriya alayı bölmələrinə havadan endirilən zərbələr nəticəsində düşmən ağır itkilər verdi.

2020-ci ilin oktyabr ayında Azərbaycanın Gəncə şəhərinin Ermənistan Silahlı Qüvvələri tərəfindən 5 dəfə ayrı-ayrı zamanlarda bombalandı.

## "DƏMİR YUMRUQ" YERİNDƏDİR

Dövlət başçısının göstərdiyi qətiyyətli mövqe, gündən-günə hərtərəfli formalaşan qüdrətli Azərbaycan Ordusu və xalqımızın mübariz ruhu işğal olunmuş torpaqlarımızı erməni işğalından azad etdi. Cənubi Qafqazın lider dövləti olan Azərbaycan öz torpaqlarını qarış-qarış işğaldan azad etdi və işğaldan azad olunan torpaqlarımızda Azərbaycan bayrağı dalğalandı.

44 günlük Vətən müharibəsindən sonra deyəsən, "dəmir yumruğ"un gücünü görmüş ermənilər unutqanlıq edirdilər. Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri 10 noyabr 2020-ci il tarixli Bəyanatının müddəalarını kobud surətdə pozaraq ötən ilin avqustun 3-də Azərbaycan Ordusunun bölmələrinə qarşı terror-təxribat əməli törətdilər. Bundan əlavə, qeyri-qanuni erməni silahlı dəstələrinin ünsürləri Kəlbəcər və Laçın rayonlarının ərazisini əhatə edən dağ silsiləsində yerləşən Qırxqız yüksəkliyini ələ keçirmək və orada yeni döyüş mövqelərini qurmağa cəhd göstərmişdilər. Azərbaycan Ordusu bölmələrinin keçirdiyi "Qisas" cavab əməliyyatı nəticəsində Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəklikləri nəzarətə götürdü.

Sentyabrın 19-da Azərbaycan Ordusunun Qarabağda başlatdığı lokal xarakterli antiterror tədbirlərinin qısa müddətdə öz müsbət nəticəsini verməsi, separatçıların təslim olması əlbəttə ki, ölkəmizin növbəti uğuru, qələbəsi kimi tariximizə yazıldı. Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyəti, müdrik siyasətinin nəticəsidir ki Azərbaycan tarixinə böyük uğurlar və nailiyyətlər həkk olunur. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi, müharibə onların yadından çıxmamalıdır: "Unutmasınlar ki, dəmir yumruq yerindədir".

**Zümrüd BAYRAMOVA**

ANALİZ

# Rusiyalı kosmonavt Azərbaycanda nəyi bəyəndi?





Rusiyalı kosmonavt Anna Kikina Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresinin qonağı olub. Annanın çox zəngin tərcümeyi-halı var- o, Rusiyanın idman ustasıdır, Altayda üzgüçülük üzrə təlimatçı, bələdçi kimi işləyib, xilasedici kursantlar hazırlayıb, həmçinin ”Radio Sibir Altay”-ın aparıcısı və proqram direktoru olub. Onun üçün dönüş nöqtəsi 2012-ci ildə ”Roskosmos”da kosmos komandasının işə götürülməsini öyrəndiyi zaman oldu. Bu gün Kikina ”Roskosmos” kosmonavtlar korpusunda yeganə qadın, eləcə də amerikalı milyarder İlon Maska məxsus ”SpaceX-in Crew Dragon” kosmik gəmisində uçan ilk rus kosmonavtdır. Anna Kikina ”Moskva-Baku” portalına müsahibəsində kosmonavt olmağın necə asan olduğunu danışıb, həmçinin sevimli Azərbaycan yeməyinin reseptini bölüşüb.

*- Anna, siz Beynəlxalq Astronavtika Konqresində iştirak etmisiniz. Azərbaycandan hansı təəssüratlarla ayrılırsınız?*

- Mən Bakını əsasən avtobusun pəncərəsindən görürdüm, çünki biz konqresdə çox vaxt keçirirdik. Əsas tədbirlərin keçirildiyi Heydər Əliyev Mərkəzinin qeyri-adi binası məni heyran etdi. Mərkəzə yaxınlaşanda gördüm ki, qazonu təzəcə sulayıblar və elə səhər təravətini hiss etdim ki, əhvalım dərhal yüksəldi.

Azərbaycan mətbəxini çox bəyəndim. Mən badımcanları çox sevirəm və ən dadlı salatı ondan hazırlayırlar. Badımcanı parçalara ayırın, sonra nişasta ilə örtün və xırtıldayana qədər qızardın. Üstü xırtıldayan, içi isə yumşaq olur. Bu dadlıdır!

*- Resepti belə ətraflı təsvir etdiniz!*

- Restoranda mənimlə bölüşdülər, indi evdə Azərbaycan xırtıldayan badımcan salatı hazırlayacam.

*- Çoxları uşaqlıqda kosmonavt olmağı xəyal edir, amma bu arzunu həyata keçirə bilmir. Bəs siz kosmosa necə getdiniz?*

- Uşaq olanda mən də kosmonavt kimi oynayırdım, amma bir gün kosmonavt olacağımı ağlıma belə gətirməzdim. İnanıram ki, həyatda keçdiyim bütün yollar məni buna aparıb. Və 27 yaşımda kosmonavtlar korpusuna Rusiya vətəndaşlarını cəlb etdiklərini biləndə hiss etdim ki, məhz bu mənim istədiyim şeydir. Üstəlik, bunun üçün düzgün həyat təcrübəm də var idi. Hər şeyin yoluna düşdüyünə şadam. Mən öz işimi görməkdə çox maraqlıyam.

*- Bizə deyin, kosmonavtların seçilməsi hansı meyarlara əsasən aparılır?*

- Rusiyada buna ciddi yanaşırlar. Əvvəlcə lazımi sənədlər paketini toplamaq lazımdır. Bu, çox qalın bir kağız yığınıdır və siyahıya uyğun olaraq hər şeyi düzgün tərtib etmək lazımdır. Əgər sənədlərə uyğun gəlsəniz, o zaman sizi seçim prosesinə dəvət edirlər. Onlar psixoloji hazırlıq səviyyəsini və fiziki hazırlığı müxtəlif parametrlərə görə yoxlayırlar: güc, dözümlülük, çeviklik, sürət. Maksimum performans göstərməlisiniz ki, seçim komitəsi orqanizminizin çətin sınaqlara nə qədər hazır olduğunu görə bilsin.

Sonra riyaziyyat, fizika, ingilis dili bilikləri, ümumi dünyagörüşü və hətta bort sistemləri üzrə sualların səviyyəsinin müəyyən edildiyi peşəkar qabiliyyət imtahanı verilir. Görüşdən əvvəl gəminin bort sistemi haqqında məlumat verirlər və qısa müddətdə onun necə işlədiyini başa düşməlisiniz. Və ertəsi gün komissiyanın suallarına cavab verirsiniz və heç bir səhv etməməlisiniz. Həm də onlara izah etməlisiniz ki, niyə kosmonavt olmalısan? Bütün bu səviyyələri müvəffəqiyyətlə keçdiyiniz zaman, namizədin sağlamlıq vəziyyətinin xüsusi tədqiqatlar zamanı müəyyən edildiyi Kosmonavt Hazırlıq Mərkəzinə tibbi müayinəyə göndərilirsiniz. Əgər seçimin əvvəlində 50 namizəd var idisə, tibbi müayinədən sonra cəmi 8 nəfər qaldı.

*- Amma kosmosa uçmaq üçün daha 10 il hazırlıq lazım idi. Bu müddət ərzində nə baş verdi?*

- Kosmonavtlar nə edir? Onlar Yerdə vaxtlarının çoxunu kosmosa getməyə hazırlaşmaqla keçirirlər. Burada onlar iki böyük vəzifəni yerinə yetirirlər. Birincisi, elmi tədqiqat proqramlarının həyata keçirilməsi, ikincisi isə kosmik stansiyanın bort sistemlərinin saxlanılmasıdır. Əgər qorunmasa, uzun müddət mövcud ola bilməyəcək. Çox sayda bort sistemləri, avadanlıqlar dəyişdirilməli, təmir edilməli olan elementlər, oxunuşlar alınmalı, mövqelər dəyişdirilməlidir. Bort sistemləri ilə necə işləmək olar- biz bunu daim Yer üzündə öyrənirik. Biz Kosmonavt Tədris Mərkəzində mövcud olan tam ölçülü modullar və simulyatorlar üzrə praktiki təlim keçirik.

*- 2022-ci ildə siz "SpaceX-in Crew Dragon" Amerika kosmik gəmisində uçan yeganə rus kosmonavtı oldunuz. Bu kosmik ekspedisiyadan hansı təəssüratlarla qayıtdınız?*

- Çox şadam ki, mənə bu fürsət verilib. Bu, qeyri-adi təcrübədir, bu missiyaya hazırlığın təşkili, prosesin bütün iştirakçılarının bizim birgə işimizə yüksək marağı məni heyran etdi: həm yerüstü mütəxəssislər komandası, həm də ekipajın üzvləri! Qarşılıqlı etimada və qarşılıqlı hörmətə əsaslanan çox məhsuldar fəaliyyətimiz oldu. Bu da ekspedisiyanın yaxşı nəticələrinə səbəb oldu!

*- Missiyanız nə idi?*

- Mən 2 nömrəli mütəxəssis idim, mənim vəzifəm gəminin içərisindəki avadanlıqları düzgün idarə etmək idi. Kosmik stansiyada demək olar ki, 6 aya yaxın işlədim, 68 nömrəli uzunmüddətli ekspedisiyanın tapşırıqlarını, əsasən, Rusiya seqmentində yerinə yetirdim. Bu, bort sistemlərinin saxlanması, həmçinin bir sıra elmi tədqiqatlar və təcrübələr, o cümlədən, məsələn, qan dövranı sisteminin kosmik uçuşun mənfi amillərinin təsirinə reaksiyasının öyrənilməsidir.

*- Uçuşdan sonra müvazinəti bərpa etmək çətin olmadı?*

- Sözün əsl mənasında yer şəraitinə uyğunlaşmalısan. İlk saatlarda siz yanlara əyilmədən yenidən yeriməyi, yıxılmamaq üçün düz durmağı öyrənirsiniz. Zamanla yerişinizdə inam yaranır və bədəninizdə güc və yüngüllük hiss etməyə başlayırsınız. Təxminən 10 gündən sonra yenidən forma aldığını düşünürsən, amma yox, hələ tezdir... Təxminən 6 aya tam bərpa olmaq olar. Həvəskar qaçış yarışında vaxt sınağı keçirəndə bunu hiss etdim. İndi mən yenidən məşqlərdə iştirak edirəm, kosmosda uçmaq və işləmək üçün təlimlərdə iştirak edirəm və qarşıda başqa bir ekipaj tapşırığım var.

*- Belə bir ritmdə 6 ay kosmosda, ondan əvvəl isə məşqdə olanda ailə münasibətlərini qoruyub saxlaya bilirsənmi?*

- Mən kosmonavtlar korpusuna seçiləndə ərimlə Novosibirskdən köçdük. Onun ixtisası üzrə yeni yerdə vəzifə tapılması məni sevindirdi. O, Kosmonavtların Hazırlanması Mərkəzində bədən tərbiyəsi üzrə məşqçidir. Ailəyə vaxt tapırıq, amma bu, daha çox axşamlar və həftə sonları olur (gülür).

*- Maraqlıdır, kosmik yeməkləri sevirsən?*

- Bəli, xüsusən də rus məhsullarını. Mənim üçün daha qidalı və dadlı oldu. Baxmayaraq ki, biz müxtəlif yeməkləri sınadıq- Amerika, Yapon, Avropa. Kosmosda olarkən yer qidası üçün xüsusi olaraq darıxmadım, çünki balanslaşdırılmış pəhrizimiz var idi.

*- Amma şübhəsiz ki, nəsə çatışmırdı?*

- Mən çox istəyirdim ki, bir stəkan isti çay içim! Özü də, bu, ətirli paket çayı olmasın (gülür). Bilirsiniz, amma Yerə qayıtdıqdan sonra hiss edirəm ki, bəzən kosmik yeməklər üçün darıxıram.

***Tərcümə - Elçin Bayramlı***



# Metroda növbə...

**MƏTANƏT**

**Yox, demirəm ki, biz növbə-filan görməmişik. Görmüşük. Elə bu dəqiqə də görməkdəyik. Başqa planetdən gəlməmişik ki... Görmüşük növbələr. Məsələn, 90-cı illərdə çörək növbələri görmüşük. Neft, ərzaq növbələri görmüşük. Həm də necə görmüşük... Səhərin gözü açılmamış qalxıb qışın şaxtasında belə yollanmışıq çörək mağazalarının qarşısına ki, mağaza açılan kimi çörək ala bilək, yoxsa həmin gün külfət ac qalardı...**

Səhərin gözü açılmamış yollanmışıq müəyyən olunan yerə ki, neft alıb çırağımıza, sobamıza tökək, evimizi işıqlandıraq, isidək.

Səhərin gözü açılmamış talonumuzu da alıb əlimizə gedib mağazaların qabağını kəsmişik ki, qənd, şəkər tozu, vermişel, yağ və sair ərzaq alaq ki, ”şirin çay”,- deyib ağlayan uşaqlarımızın səsini kəsə bilək, ”yemək”,- deyib sızıldayan övladlarımızın yanında gözükölgəli qalmayaq.

Bəli, sıralar, növbələr görmüşük. Elə indi də görürük. Məsələn, gedirik marketə, istədiklərimizi götürüb, gəlib dayanırıq kassaların qarşısında, boynumuzu bükük sıramızı gözləyirik. Marketlər var ki, həqiqətən də burada alış-veriş edənlərin sayı çoxdur, buna görə də sıra, növbə çox olur. Marketlər də var ki, 4-5 kassadan yalnız 2-si və yaxud da 1-i işləyir, ona görə də kassa qarşısında boynumuzu burub dayanmalı oluruq.

Bəzən də elə əsassız səbəbdən növbə gözləməli oluruq ki... Deyim, siz də başınıza gəlməmiş olmadığından xatırlayın. Məsələn, dayanmısan kassa önündə, sıra gözləyirsən, bir də baxırsan ki, səndən 5-6 adam qabaqda qırğın-qiyamət başladı. Sən demə, market hansısa ərzağın üzərinə endirimli qiymət yapışdırıb, alıcı da götürüb gəlib, kassada məlum olub ki, yalanmış. Bu zaman qırğın başlayır, nə başlayır. Ta bu dəfə qaldın kassanın qarşısında növbədə ki növbədə. Müştərinin problemi həll olunanadək, mağaza müdiri gəlib məsələni araşdıranadək, sən dayanıb gözləyirsən.

Hələ bəzən də kassalarda pul olmur ki, sənə qalıq qaytarsınlar, kassir gedir pul dalınca. Sən də dəqiqələrlə kassa qarşısında boynunu bükməli olursan.

Növbələr görmüşük, görməmiş deyilik. Məsələn, hərdənbir ”Alfon” telefonların yeni versiyası çıxır, şəhərimizdəki bütün rəsmi satış mərkəzlərində növbə haradan-hara olur. İnsanlar sıraya düzülüb bu yeni versiyaya sahib olmaq uğrunda mübarizə aparırlar. Düzdür, biz o sırada heç vaxt olmasaq da, lakin sosial mediada və yaxud da küçədən keçəndə bu mənzərəni izləyərkən 90-cı illərin çörək növbələrini gözlərimiz önünə gətirib, dərin də bir köks ötürüb keçməkdən savayı çarəmiz olmur. Belə növbələrlə qarşılaşanda bir də bircə kəlmə onu deyirik ki, bu camaat görəsən xəstədir, nədir, vallah, bunlara həkim lazımdır.

Nə isə, deyəsən mətləbdən çox uzaqlaşdım, bəlkə də uzaqlaşmadım, sıram gedib uzağa düşdü ki, söhbətə giriş edə bilmirəm.

Yəni, demək istəyirəm ki, biz çox sıralar, növbələr görmüşdük, lakin metroda növbə görməmişdik. Ay qardaşlar, ay bacılar, siz necə, görmüşdünüz? Vallah, dünən saat 17.37-də bizimlə birlikdə metronun ”Sahil” stansiyasında olsaydınız, görərdiniz ki, növbə necə olur.

Deməli, stansiyanın giriş qapısının ağzı sağlı-sollu insanla dolu idi. Növbə burada həm sağ, həm də sol tərəfdəki mağazaların qarşısı boyu uzanırdı. Bəlkə yarım saata stansiyaya girmək mümkün olardı, siz deyin, azdı. Saata baxırdım, elə yarım saata kimi daxil ola bildik. Hələ biz qabaqda idik. Arxadakı insan seli isə uzandıqca uzanırdı.

Hə, burada məəttəl qalmayıb, nə edəsən? Deməyəsən ki, metroda da sıra olar? Əlbəttə deyəcəksən. Deyəcəksən ki, vallah, biz zamanla növbələr görmüşük, görürük də, lakin metroda bir gün növbəyə duracağımızı əsla təsəvvür belə edə bilməzdik. Metroda nə səbəbdən növbə ola bilər ki?.. Çox düşündüm, lakin biz variant tapa bilmədim. Bilən varsa, bizə də desin, çox maraqlıyıq...

# Beynəlxalq Qızlar Günü: üz qızardan həqiqətlər

*Mənə dünyanı qucaqla desələr, qızımı qucaqlayaram!*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb*

***Hər il oktyabrın 11-i Beynəlxalq Qız Uşaqları Günü qeyd edilir. Bəli, qeyd edirlər, sevinirlər, qız uşaqlarına sevgidən danışırlar. Övladını 13-15 yaşında ərə verənlər, qızını hələ doğulmamış həkim bıçağına doğratdıranlar nə düşünür bu gün?***



### Qızların haqqı rüşeym ikən tapdanır

Hər il dünyada 55 milyon uşaq ana bətnindən doğranaraq xaric edilir. Onların 20 milyonu qeyri-leqal abortlardır. Yəni, küncdə-bucaqda, evdə, həyətdə, hansısa fəaliyyəti qadağan olunmuş həkimin çirkli otağında edilən abortlar. Bu abortların hər il dünyada 70 mindən artıq qadının ölümünə səbəb olduğunu bilirdinizmi? Edilən abortların əksəriyyəti dölün 12-13 həftəliyində reallaşır. Bu, körpənin cinsiyyətinin bəlli olduğu ərəfədir. Yəni, daha açıq desəm, cinsinin qız olması körpənin yaşama şansını azaldır və bu da selektiv abort statistikasını yüksəldir.








Cinsi ayrı-seçkilik dünyanın bütün ölkələrində həmişə müzakirə edilən və heç vaxt öz həllini tapmayan bir mövzudur. Selektiv abort da bu məsələnin ən utandırıcı tərəfidir. Kasıblıq, maddi çətinlik, savadsızlıq- adını hər nə qoyursan qoy, nəticə dəyişmir. Axı arzuolunmaz hamiləlikdən qorunmaq o qədər də çətin və bahalı deyil. Bir az savad, azacıq dərrakə, çox kiçik miqdarda maliyyə. Maliyyə dediyimə baxmayın, bir aborta sərf edilənin yarısı qədər məbləğdən söhbət gedir arzuolunmaz hamiləlikdən qorunmaq üçün 4-5 illik vasitəni əldə etməyə.

### Bütün təməl haqlarından məhrum qalırlar

ARAŞDIRMA

2012-ci ildə Birləşmiş Millətlər Təşkilatının qızların cinsiyyətinə görə üzləşdiyi bərabərsizliyə diqqət çəkmək üçün qəbul etdiyi qərarla qeyd olunmağa başlayan Beynəlxalq Qız Uşaqları Gününün keçirilməsində əsas məqsəd diqqəti qızların hüquqlarının müdafiəsinə, oğlan və qızlar arasında gender bərabərliyinin təmin olunmasına, müxtəlif növ ayrıseçkilikdən əziyyət çəkən qızlara yönəltməkdir.

Beynəlxalq Qızlar Günü bir çox ölkələr üçün aktual olan uşaq nikahlarına da diqqət çəkir. Uşaq nikahı insan haqlarının pozulması deməkdir və qızların həyatının bütün aspektlərinə mənfi təsir göstərir. Erkən nikahlar qızları uşaqlıq çağından məhrum edir. Onları zorla təhsildən yayındırır, təməl hüquqlarından məhrum edir. Beynəlxalq Qız Uşaqları Günü qızların təhsil, qidalanma, uşaq nikahı, hüquqi və tibbi hüquqlar istiqamətində bütün hüquqlarının təmin edilməsində, bu haqda məlumatlılığın artırılmasında böyük əhəmiyyət kəsb edir.




### Utandıran həqiqətlər: statistika nə deyir?

Dünyada 15-19 yaş arasında olan hər 4 qızdan 1-i təminatsızdır və təhsil ala bilmir. Bu gün dünyada 600 milyon yeniyetmə qız yaşayır, 130 milyon qız uşağı isə məktəbə getmir. Pandemiyadan əvvəl gender bərabərsizliyi geniş yayılmış ədalətsizlik olsa da, pandemiyanın mənfi təsirləri ilə bu ədalətsizlik dəfələrlə artıb. Pandemiyadan sonra daha 11 milyon qızın məktəbə qayıtmayacağı təxmin edilirdi.

Dünyada 15-29 yaşlı gənc qadınlar məşğulluq və təhsil almaqda eyni yaşlı kişilərə nisbətən üç dəfə daha çox çatışmazlıqlar yaşayırlar. 20 yaşınadək hər 10 gənc qızdan biri cinsi zorakılığa məruz qalır. Bütün bu məlumatlar göstərir ki, bu gün bəşəriyyətin yarısı sistematik olaraq geridə qalıb, müxtəlif ayrıseçkilik və bərabərsizliyə məruz qalır.

Dünyada sürətlə texnoloji imkanların genişləndiyi, bu sahədə mütəxəssis sayının artdığı dövrdə süni intellekt və məlumatların təhlili üzrə mütəxəssislərin yalnız 26 faizi qadınlardır. Texnoloji imkanlarda irəli gedə bilsə də dünya qızların bu istiqamətdə irəliləməsini məhdudlaşdırır.

Dünyanın 39 ölkəsində oğul və qızlar mirasda bərabər pay almırlar, qızların miras haqqı azaldılaraq haqları əks cinsdən olan qohumlarına verilir. Dünya qadınlarının 30 faizi əks cins tərəfindən fiziki və ya cinsi zorakılığa məruz qaldıqlarını bildirir. Sosial bərabərliyin ən yüksək səviyyədə olduğu ilk 5 ölkə İslandiya, Norveç, Finlandiya, İsveçrə və Nikaraquadır. Sosial bərabərliyin ən aşağı səviyyədə olduğu ilk 5 ölkə isə Yəmən, Pakistan, İraq, Suriya və Çaddır.

Qlobal işçi qüvvəsində iştirak nisbəti qadınlar üçün 63 faiz, kişilər üçün isə 94 faiz təşkil edir. Dünyada qadınların yalnız 41 faizi analıq müavinəti alır. Qadınların ev işlərində yükü kişilərdən 3 dəfə çoxdur. Dünyada uşaqları ilə tək yaşayan valideynlərin 84 faizi qadınlardır.

### Hələ 300 il dözün qızlar!

Dünyada uşaq nikahlarının ən çox qeydə alındığı bölgənin Cənubi Asiya olduğu bildirilir. Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun (UNICEF) hazırkı məlumatlarına görə, dünyada uşaq yaşda evlənən 640 milyon qadının 45 faizi bu bölgədə yaşayır. Hindistan isə uşaq nikahlarının ən çox baş verdiyi ölkələr arasında birinci yerdədir. UNİSEF dünyada uşaq nikahlarının sayının azaldığını, lakin bu azalmanın arzuolunan səviyyədə olmadığını deyir və hesab edir ki, dünyada uşaq nikahlarının tamamilə aradan qaldırılması üçün daha 300 il gözləmək lazım gələcək.

UNİSEF-in son hesabatına görə, hər il 18 yaşına çatmamış 12 milyon uşaq və yeniyetmə qız gəlin olur. Bununla belə, yeni məlumatlar göstərir ki, son 25 ildə uşaq nikahlarının sayı azalıb. 1997-ci ildə 20-24 yaş arası gənc qadınların 25 faizinin 18 yaşından əvvəl evləndiyi bildirilirdi, bu nisbət 2012-ci ildə 23 faizə, 2022-ci ildə isə 19 faizə enib. Hesabatda bildirilir ki, bu tendensiya davam edərsə, 2023-cü ilə qədər uşaq gəlinlərin sayının 9 milyona qədər azalacağı ehtimal edilir.

UNICEF uşaq nikahlarının aradan qaldırılmasında nisbi irəliləyişin əldə edildiyini qeyd edərək, bununla belə, Covid-19 pandemiyasının, qlobal münaqişələrin və iqlim dəyişikliyinin artan təsirlərinin bu sahədə çətin qazanılmış nailiyyətləri təhlükəyə ata biləcəyini də ifadə edib. Hesabata görə, təkcə Covid-19 epidemiyasının yaratdığı təsirlərin 2020-2030-cu illər arasında 10 milyona yaxın uşaq nikahına səbəb olacağı gözlənilir.

Güclü qızlar, güclü gələcək deməkdir. Qızlarınıza ağılları, bilikləri, zəkaları və şəxsiyyətləri ilə var olmağı öyrədin. Arzularını həyata keçirən təhsilli, qərarlı, zəkalı qızlarla dünya daha da gözəlləşəcək. Bizim üçün normal olan haqlar başqa bir ölkədə qızların ancaq arzusu, xəyalıdır. Bütün dünyada qızların bərabər təhsil ala bildikləri, ayrıseçkiliyə məruz qalmadıqları və həyatları boyu öz qərarlarını verə bildikləri bir gələcək gələcək. Mütləq gələcək!

**_Lalə Mehralı_**

SƏS
11 oktyabr
2023-cü il

# Ronaldodan tələb: "Müqaviləmi 2027-ci ilə qədər uzadın"



**Səudiyyə Ərəbistanının "Əl-Nəsr" futbol klubunda çıxış edən portuqaliyalı ulduz futbolçu Kriştiano Ronaldo ərəb klubu ilə hazırkı müqaviləsini 2027-ci ilə qədər uzatmaq istəyir. Bu barədə jurnalist Əli Əl-Hərbi X sosial şəbəkəsindəki səhifəsində bildirib.**

Onun yazdığına görə, Ronaldo qarşıdan gələn Avropa çempionatının seçmə oyunlarında iştirak etmək üçün Portuqaliya millisinə yola düşməzdən əvvəl istəyini klub rəhbərliyinə çatdırıb. Ərəb jurnalistin yazdığına görə, portuqaliyalı forvard DÇ-2026-da iştirak etmək üçün komanda ilə müqaviləsini uzatmaq istəyir, bundan sonra peşəkar karyerasını bitirmək niyyətindədir.

## XƏBƏRDARLIQ: avtobus zolağına çıxan avtomobillər cərimələnəcək

**Bakı-Sumqayıt yolu üzrə hər iki istiqamətdə avtobus zolağı çəkilib. Məqsəd magistral yolda pik saatlarda sıxlıq zamanı vətəndaşların rahat mənzil başına çatmasını təmin etməkdir. Avtobus zolağının çəkilməsi ictimai nəqliyyatın maneəsiz hərəkət etməsinə hesablansa da, bəzi sürücülər buna problem yaradırlar. Belə ki, avtobuslar üçün çəkilmiş zolağa daxil olan sürücülər ictimai nəqliyyatın hərəkətinə manea yaradır və avtobusların da tıxacda qalmasına səbəb olurlar. Lakin avtobus zolağına daxil olan sürücülər inzibati xəta törətmələrindən xəbərsizdirlər.**




**AZƏRTAC Daxili İşlər Nazirliyinə istinadla xəbər verir ki, avtobus zolağına daxil olaraq qanunun tələbini pozan sürücülər yol hərəkəti qaydalarını pozmuş olurlar. Qaydaları pozan sürücüləri 327.1 maddəsi ilə 40 manat cərimə gözləyir.**

## Bədən dili ilə fikirlərimizi necə ötürürük?

*AYDINLIQ GƏTİRİLDİ*



"Bədən dili ilə fikirlərinizi ötürmək üçün ilk növbədə söhbətə hazırlaşmaq lazımdır. Qeyri-verbal dil elə bir şeydir ki, insanın təhtəlşüur olaraq düşündüklərini üzə çıxarır. Məsələn, bir insana "Siz" deyə müraciət etsək belə ona barmaq uzadaraq danışırıqsa, bu, təhqir hesab olunur. Dildə müraciət forması mədəni şəkildə olsa da, əl işarəsi artıq öz hiddətini bildirir. Bizim dilimiz bədənimizdən sonra yaranıb. Bədənimiz fikrimizi qarşımızdakına daha tez çatdırır". Bu sözləri SİA-ya rejissor Pərviz Məmmədrzayev deyib.

Onun sözlərinə görə, qarşımızdakı insanı hansı səviyyədə gördüyümüz belə bədən dilimizi idarə etməyimizdə mühüm rol oynayır: "Görüşdüyümüz insanla salamlaşmaq üçün əl tutuşduqda belə bu bəlli ola bilir. Cürbəcür əl görüşləri mövcuddur. Məsələn, sadəcə barmaq uclarını uzadıb geri çəkməyə "ölü balıq" deyilir. Çünki bu zaman əldə heç bir hissiyyat olmur. Hətta əl tutuşarkən altda, üstdə, yanüstə tutmağın belə müxtəlif mənaları var. Əli üstdə tutaraq uzatmaq yəni, "Ovcunu aç, mən səndən üstünəm, sən aşağısan" deməkdir".

"Belə bir deyim var: "Ağıllı insanın ağlı nitqindən öncə gəlir". Əvvəl düşünüb, sonra danışmalıyıq. Çünki danışmasaq belə bədən dilimiz bizi üzə verə bilir. Onu da qeyd edim ki, bədən dilinin ən çox rol oynadığı sahələr diplomatiya və incəsənətdir",- deyə o əlavə edib.

***Ləman Sərraf***

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Azərbaycanda donuz taununun yayılma riski var?

*QURUMDAN AÇIQLAMA*



Rusiyanın Primorye diyarında Afrika taununun yayılması səbəbindən təxminən 5 min donuz yandırılıb. Bildirilir ki, heyvanlar əvvəl yatızdırılıb, hazırda isə ərazidə Afrika donuz taunu ilə bağlı karantin tətbiq olunduğu üçün onların cəmdəkləri yandırılır. Bəs, bu xəstəliyin Azərbaycana gəlməsi riski nə qədərdir? SİA mövzu ilə bağlı AQTA-dan açıqlama alıb. Qurumdan bildirilib ki, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi başqa ölkələrdən respublikamızın ərazisinə keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunmaq məqsədilə Ümumdünya Heyvan Sağlamlığı Təşkilatından (WOAH) daxil olan məlumatlar əsasında dünyadakı epizootik vəziyyətə uyğun olaraq müvafiq tədbirlər həyata keçirir: "Ölkəmizdə donuz saxlanılması o qədər də geniş yayılmadığı üçün bu xəstəliyin donuzlar arasında yayılması riski çox aşağıdır. Həmçinin, ölkəmizə idxal olunan məhsullar xüsusi müayinələrə cəlb olunur və yalnız təhlükəsizlik, keyfiyyət göstəriciləri uyğun məhsulların idxalına icazə verilir. Ona görə də Azərbaycanda Rusiyada yayılmış donuz taunu xəstəliyinin yayılması riski aşağıdır".

***Ləman Sərraf***

## Eden Azar futbola "əlvida" dedi...



Belçika millisinin və İspaniyanın "Real Madrid" komandasının sabiq yarımmüdafiəçisi Eden Azar peşəkar karyerasını başa vurub. Ulduz oyunçu 32 yaşında futbolla vidalaşıb. O, qərarını sosial şəbəkə hesabında açıqlayıb.

"Doğru zamanda "dur" deməyi bacarmalısınız. 16 illik karyeramdan və oynadığım 700-dən çox matçdan sonra peşəkar karyeramı bitirmək qərarına gəldim", - deyə E. Azar yazıb.

Qeyd edək ki, Son klubu "Real Madrid" olan Eden Azar karyerası ərzində Fransanın "Lill" və İngiltərənin "Çelsi" komandalarında da çıxış edib.

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000